

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## COP29 ilə əlaqədar Təşkilat Komitəsinin yeddinci iclası keçirilib




3


SƏS
№ 180 (7105)
2 oktyabr 2024-cü il.
Qiymət 60 qəpik


# Qərbi azərbaycanlılar tarixi torpaqlarımıza qayıdacaqlar



2

**Prezident İlham Əliyev: "Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük"**

# İKİÜZLÜLÜK ŞOUSU



4

## Azərbaycanın iqtisadi inkişaf modeli



10

## Bahalaşma niyə dayanmır?



5

## Mədəkiçiltmə əməliyyatı və onun DƏHŞƏTLİ NƏTİCƏLƏRİ



6

## Erməni sevgisi müsəlman həmrəyliyini üstələyirsə...



8

## Dünyanın ən bahalı futbolçusu açıqlandı - qiyməti 200 milyon avrodur!




16

# Qərbi azərbaycanlılar tarixi torpaqlarımıza qayıdacaqlar

## Prezident İlham Əliyev: "Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük"



"Xalqımız XX əsrdə üç deportasiya dalğasına məruz qalmışdır - 1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir. İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni, hamısı olmasa da, böyük bir qismim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Əlbəttə ki, Vətən sevgisi, o torpaqlar unudulmayıb və unudulmayacaq, o torpaqları görməyən Qərbi azərbaycanlıların sonrakı nəsilləri Vətən həsrəti ilə yaşayırlar". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında çıxışı zamanı bildirib. Tarixin müxtəlif dönəmlərində azərbaycanlılar öz əzəli torpaqlarından uzaqlaşdırılmış, deportasiyaya məruz qalmışdırlar. XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb.

### "ERMƏNİLƏR QARABAĞDAKI KİMİ, QƏRBİ AZƏRBAYCANDA DA BİZİM BÜTÜN TARIXİ, DİNİ ABİDƏLƏRİMİZİ YERLƏ-YEKSAN EDİBLƏR"

XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib. "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər,dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var."- deyə dövlət başçısı çıxışlarının birində bildirib. Tarixdən bəllidir ki, 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilib, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilib, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinib. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail olublar. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Zəngəzurun Ermənistana verilməsi Azərbaycana qarşı növbət xəyanət idi.

Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atıblar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olublar. SSRİ Nazirlər Sovetinin bu qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktları olub. Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki doğma torpaqlarından kütləvi surətdə və zorakılıqla sürgün olunub. Əsrin əvvəllərində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq qovulub. Azərbaycanlıların hüquqları kobudcasına pozulub, onlara qarşı sərt repressiyalar həyata keçirilib.

Ötən əsrin 80-ci illərinin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi. O illərdə 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Sonuncu kəndimiz Nüvədi isə 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı.

1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - Ermənistandan növbəti deportasiyası baş verib, nəticədə 250 min azərbaycanlı qaçqın düşüb. Bu hadisəyə, o cümlədən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə Azərbaycan xalqının etirazı ona qarşı 1990-cı ilin yanvarında Sovet qoşunlarının yeridilməsinə, Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında kütləvi qırğınlarla səbəb olub.

### "BİZ HƏR DƏFƏ QARŞIYA HƏDƏFLƏR QOYMALIYIQ"

Xalqımızın inamını özünə qaytaran, Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, Ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm Qələbə yeni reallıqlar yaradıb. Zəfərimiz bütün dünyaya xalqımızı yenilməz bir bir xalq kimi təqdim edib. 2020-ci il sentyabrın 27-də Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərizində düşməndən azad edildi.

Əlbəttə ki, Azərbaycan Prezidentinin qüdrəti və apardığı uğurlu xarici və daxili siyasət sayəsində Qərbi azərbaycanlıların da tarixi torpaqlarına qayıdacağı gün uzaqda deyil. "Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük", - deyəp Prezident bildirib ki, o torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, Böyük Qayıdış proqramının icrasını səbirsizliklə gözləyirlər: "Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik". Ölkəmizin iqtisadi və sosial inkişafı, beynəlxalq nüfuzunun artması, xalqımızın rifahının yüksəlməsinə və daha gözəl gələcəyinin təmin edilməsinə xidmət edən dövlət siyasəti daha böyük uğurları bizlərə yaşadacaqdır. Göründüyü kimi, bütün hədəf və məqsədimiz aydındır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı, Azərbaycan ordusu 44 günlük müharibədə qələbə əzmini dünyaya nümayiş etdirdiyi kimi, bundan sonra da qarşıya qoyduğu məqsədləri reallaşdıracaqdır.

"Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr, yəni, bir il göstərdi ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bu iradənin qabağında dura bilməz. Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, suverenliyimizin tam bərpa olunması, - mən bunu bilirəm, - Qərbi azərbaycanlılarda da bu nikbinlik hisslərini, fikirlərini, ümidlərini daha da artırmışdır. Hətta işğal dövründə, 10 il, bəlkə də ondan da qabaq mən bəzi çıxışlarımda Qərbi Azərbaycanla bağlı fikirlərimi səsləndirirdim. Biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm stratejidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək", - deyə Prezident diqqətə çatdırıb.

***Zümrüd BAYRAMOVA***

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin yeddinci iclası keçirilib

***Oktyabrın 1-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin yeddinci iclası keçirilib. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sonuncu iclasdan keçən müddət ərzində COP29 üzrə Tədbirlər Planının icrası istiqamətində görülmüş işləri qeyd edib. Prezident İlham Əliyevin COP29-a hazırlıq prosesini daimi olaraq diqqətdə saxladığını qeyd edən Təşkilat Komitəsinin sədri dövlətimizin başçısının sentyabrın 10-da Bakı Olimpiya Stadionunda COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olaraq müvafiq tapşırıq və göstərişlər verdiyini diqqətə çatdırıb.***




Samir Nuriyev sentyabrın 22-23-də Nyu-Yorkda keçirilmiş ”Gələcəyin Sammiti”ndə, daha sonra isə BMT Baş Assambleyasının 79-cu sessiyasının ümumi müzakirələri çərçivəsində bir sıra dövlət və hökumət başçılarının öz çıxışlarında COP29-a istinad etməsinə toxunaraq, noyabr ayında bütün dünyanın diqqətinin Azərbaycanda olacağını bildirib.

Prezident Administrasiyasının rəhbəri sentyabr ayında COP29 Sədrliyi tərəfindən Bakıda müxtəlif vacib tədbirlərin təşkil olunduğunu bildirərək, İtki və Zərər Fondunun 3-cü iclasını xüsusi qeyd edib. Təşkilat Komitəsinin sədri hazırda davam edən Bakı İqlim Həftəsinin əldə etdiyi nəticələrin davamlı olacağına inamını ifadə edib, qarşıdan gələn tədbirlər arasında oktyabrın 10-11-də keçiriləcək Pre-COP tədbirinin vacibliyini vurğulayıb.

Samir Nuriyev Prezident İlham Əliyevin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin COP29-da iştirakından irəli gələn məsələlərin həlli ilə bağlı verdiyi tapşırığın həm bu ölkələr, həm də inklüzivliyin təmin olunması nöqteyi-nəzərindən beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılandığını bildirib. Təşkilat Komitəsinin sədri dövlət qurumlarının COP29 çərçivəsində beynəlxalq tərəfdaşlarla birlikdə çoxsaylı tədbirlər keçirəcəklərini qeyd edib.



Samir Nuriyev Azərbaycan QHT-lərinin ”Gələcəyin Sammiti”nin işində fəal iştirak etdiklərini və bunun nəticəsi olaraq 22 ölkədən 44 QHT nümayəndəsinin Azərbaycanın COP29-a ev sahibliyi edən ölkə kimi inklüzivliklə bağlı addımlarını dəstəkləyən bəyanat verdiyini bildirib. Sonra Samir Nuriyev Bakı Olimpiya Stadionunda görülən işlər, nəqliyyatın təşkili, təhlükəsizlik, COP29 vizasının əldə edilməsi, informasiya təhlükəsizliyi ilə bağlı məsələlər haqqında danışaraq, onların həlli istiqamətində müvafiq tapşırıqlar verib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev Nyu-York İqlim Həftəsi ərzində keçirilmiş görüşlər də daxil olmaqla, COP29-la bağlı ümumi gedişat barədə məlumat verib. Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov Bakı Olimpiya Stadionunda aparılan işlər və digər təşkilati-logistika məsələləri barədə çıxış edib.

Xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində keçirilmiş görüşlər və digər substantiv məsələlər barədə danışıb. Maliyyə naziri Samir Şərifov iqlim maliyyəsi, bu kontekstdə Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə həyata keçirilən əməkdaşlıq barədə çıxış edib. Elm və təhsil naziri Emin Əmrullayev COP29 zamanı təhsil müəssisələrinin fəaliyyətinin təşkili barədə məruzə edib. Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyev COP29 zamanı təhlükəsizliyin təmin edilməsi məsələləri barədə danışıb.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova COP29 ilə əlaqədar Mədəniyyət Nazirliyi tərəfindən görülmüş işlər, o cümlədən ”İqlim naminə mədəniyyət” təşəbbüsü barədə məlumat verib. Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova COP29 ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən görülmüş işlər və ”Harmoniya” təşəbbüsü barədə danışıb. İclasın sonunda COP29 Tədbirlər Planının icrası istiqamətində görülən işlərin davam etdirilməsi və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# “Zəfər tariximizin fatehləri”

***Oktyabrın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və YAP Nərimanov rayon təşkilatının birgə təşkilatçılığı ilə partiyanın Veteranlar Şurasının üzvü Zərifə Quliyevanın ”Zəfər tariximizin fatehləri” adlı kitabının təqdimat mərasimi keçirilib.***

YAP Nərimanov rayon təşkilatının qərargahında keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib. Sonra Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədr müavini Anar Abbasov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi zəfərlərdən bəhs edib, eləcə də təqdim olunan kitabın əhəmiyyətindən danışıb.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə deyib ki, hazırda Azərbaycan inkişafının ən möhtəşəm dövrünü yaşayır. O qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz Qarabağ Zəfəri nəticəsində özünün güclü və qüdrətli dövlət olduğunu bütün dünyaya nümayiş etdirdi: ”Bu müharibə xalqımızın öz Vətənini müdafiə etmək əzmində olduğunu göstərdi. Qələbənin qazanılmasında əsas amillər sırasında ölkəmizin iqtisadi və hərbi gücü xüsusi vurğulanmalıdır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qazanılan tarixi Zəfər məhz bu siyasətin məntiqi nəticəsidir”.




YAP Veteranlar Şurasının sədri qeyd edib ki, Zərifə Quliyevanın müəllifi olduğu ”Zəfər tariximizin fatehləri” kitabında xalqımızın zəfər yürüşü geniş əksini tapıb. Onun sözlərinə görə, kitabda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə yanaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətlərindən də geniş bəhs olunur.





Tədbirdə, həmçinin YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, kitabın redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Əliqismət Bədəlov, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun politologiya və siyasi sosiologiya şöbəsinin müdiri, professor Rəna Mirzəzadə, YAP Veteranlar Şurasının üzvləri - Tahir Quliyev, professor Adilə Abbasova, Əməkdar jurnalist Tahir Məmmədov və şairə-publisist Nəsibə İsrafilqızı çıxış edərək Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasının tariximizə qızıl hərflərlə yazıldığını vurğulayıblar.

Qeyd ediblər ki, kitabda müəllifin Ulu Öndər Heydər Əliyev və akademik Zərifə xanım Əliyeva haqqında yazılmış məqalələri, son illərdə müxtəlif media orqanlarında dərc olunan şərhləri və müsahibələri toplanıb. Nəşrdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda apardığı haqq mübarizəsindən, bu müqəddəs amallar uğrunda xalqımızın milli birlik və həmrəylik nümayiş etdirməsindən, xüsusilə dünya azərbaycanlılarının dövlət başçımızın ətrafında sıx birləşməsindən, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın humanizm meyarına əsaslanan fəaliyyətindən bəhs edilib. Diqqətə çatdırılıb ki, kitab milli-mənəvi dəyərlərin təbliğ olunması, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması istiqamətində aparılan işlərə böyük töhfələr verəcəkdir.

Kitabın müəllifi, YAP Veteranlar Şurasının üzvü, ”Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri Zərifə Quliyeva çıxış edərək deyilən xoş sözlərə görə və kitabın ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkür edib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi nailiyyətlərdən bəhs edib. Vurğulayıb ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri nəticəsində azad edilmiş ərazilərimiz qısa zamanda dünyanın ən gözəl guşələrindən birinə çevriləcək. Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# İKİÜZLÜLÜK ŞOUSU

***Öz ənənəsinə, öz tərzinə uyğun olaraq, erməni baş nazir Nikol Paşinyan ziddiyyətli bəyanatlar səsləndirməkdə davam edir və davranışları daha çox şouya bənzəyir. Bəlli olur ki, Qərbin layihəsi olan əli sarıqlı, beli çantalı küçə nümayişçisi hələ də şou göstərmək ənənəsindən əl çəkmək niyyətində belə deyil. Bir vaxtlar, daha dəqiq desək, 2018-ci ildə İrəvanın küçə və meydanlarındakı nümayişlərdə şou göstərməyə bir növ alışqan olan Ermənistanın baş naziri bu dəfə də BMT Baş Assambleyasının sessiyasında öz çıxışı zamanı ikiüzlülük etməyi özünə rəva bilib. İrəvanın Bakı ilə tezliklə sülh sazişi imzalamağa hazır olması ilə bağlı onun ziddiyyətli bəyanatlar səsləndirməsini məhz bu baxımdan ikiüzlülük şousu adlandıra bilərik.***



## Paşinyanın yalan danışmaqda necə mahir olduğu, riyakarlığı bir daha öz təsdiqini tapıb

"Ermənistan və Azərbaycan arasında sülh həmişəkindən daha əlçatandır. Biz hazırda Azərbaycanla 80 faiz razılaşdırılmış sülh müqaviləsi imzalamağa hazırıq", deyən Paşinyanın yalan danışmaqda necə mahir olduğu bir daha öz təsdiqini tapıb. Hər kəs çox yaxşı bilir ki, Ermənistan sülhə qətiyyən maraqlı tərəf kimi davranmır və bu baxımdan erməni baş nazirin bu dəfə də yalan danışdığı, ikiüzlülük etdiyi dərhal bəlli olur. "Sülh müqaviləsini Ermənistanın Konstitusiyasının zidd olduğu ortaya çıxarsa, İrəvan onu dəyişdirməli olacaq", deməklə isə tamamilə riyakarlıq edir, çünki hələ də nəyi isə dəyişmək kimi bir məram ortada deyil və haylar onu dəyişməyi hələ də yubadırlar. "Ermənistan Konstitusiyasının guya Azərbaycana qarşı ərazi iddialarını ehtiva etdiyi üçün sülh sazişinə manea olduğunu Azərbaycan təkid edir. Təfərrüatlara varmadan qeyd edim ki, Konstitusiyamızda belə bir şey yoxdur, Azərbaycana qarşı heç bir ərazi iddiası yoxdur və biz bununla bağlı bütün beynəlxalq tərəfdaşlarımıza ətraflı yazılı sübut təqdim edə bilərik. Üstəlik, Ermənistana qarşı ərazi iddialarını özündə əks etdirən Azərbaycan Konstitusiyasıdır və biz bu məsələ ilə bağlı bütün maraqlı beynəlxalq tərəfdaşlarımıza yazılı arqumentlər təqdim edə bilərik", deməklə isə Paşinyan həddindən artıq həyasızlıq edir. Çünki onun dedikləri həqiqətdən tamamilə uzaqdır və elə bir ağ yalandır ki, bunu görməmək mümkün belə deyil.

## Azərbaycan qanunvericiliyində Ermənistana qarşı ərazi iddiaları yoxdur və erməni baş nazirin dedikləri yalandır

Maraqlıdır, Vovayeviç hansı sübutları, hansı arqumentləri təqdim edə bilər öz ölkəsinin beynəlxalq tərəfdaşlarına? Axı beynəlxalq tərəfdaşları belə yaxşı bilirlər ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları öz əksini tapır. Hələ də hayların ərazi iddiasında olduqları onların hər davranışlarından, hər danışıqlarından belə bəlli olur. Bütün bunların fonunda Azərbaycan Konstitusiyasında hansı ərazi iddialarının olduğunu göstərə bilər Nikol? Heç nə göstərə bilməz axı. İstər 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında və istərsə də 1918-ci il Müstəqillik Bəyannaməsində belə hansısa ərazi iddialarına rast gəlinmir. Doğrudur, hazırda Ermənistanın ərazisi kimi xəritəyə düşən ərazilərin bir zamanlar Azərbaycanın tərkibində olması tarixi faktdır və bu faktlar qətiyyən inkar belə edilə bilməz. Amma bununla belə hal-hazırda heç də Azərbaycan qanunvericiliyində Ermənistana qarşı ərazi iddiaları yoxdur. Deməli, Paşinyan növbəti dəfə utanmazcasına yalan danışır. Reallıqları, həqiqətləri bilə-bilə onları təkzib edir və yalana əl atır. Şəxsən onun özünün dəfələrlə etdiyi etiraflara görə haylar tərəfindən hansı şəkildə qınanıldığı da bir faktdır. Fakt odur ki, Azərbaycan ərazilərinə qarşı Ermənistanın, hayların iddialı olduğunu absurd hesab edən Paşinyanın özü idi. Dəfələrlə onun bu barədə fikirlər səsləndirməsinin həmin o beynəlxalq tərəfdaşları da şahidi olublar. İndi hansı üzlə belə axmaq fikirlər səsləndirir? Yəni həqiqətən də başa düşmür ki, bunun adı ikiüzlülükdür? Əlbəttə ki, bütün həqiqərləri bilərəkdən onları təkzib etmək erməni baş nazirin ikiüzlülüyünü isbatlayır və BMT Baş Assambleyasının sessiyasında nümayiş etdirdiyi də ikiüzlülük şousundan başqa heç nəyə bənzəmir.

## Məqsəd ilk növbədə, beynəlxalq ictimaiyyəti çaşdırmaqdır

Təbii ki, Vovayeviç öz ikiüzlülük şousu ilə beynəlxalq ictimaiyyətin gözündə sülhməramlı kimi görünəcəyini düşünürsə, bərk yanılır. Ona görə bərk yanılır ki, əvvəla, Ermənistanın sülhməramlı olması barədə Nikol hər dəqiqə "bəyan etsə", daha doğrusu, özündən uydursa belə buna heç özü belə inanan deyil. Bir azacıq dərrakəsi olsaydı, özünü gülünc günə qoymazdı. Özünü, öz ölkəsini sülhməramlı kimi göstərməyə çalışan erməni baş nazir elə öz ikiüzlülüyü ilə ikrah hissi doğurur. Çünki elə yalan danışır ki, buna hansısa don geyindirmək qətiyyən mümkün belə deyil. Bunun adı ikiüzlülükdür, yalançılıqdır və ortada olan da ikiüzlülük şousudur. Belə şounu qurmaqda onun və ölkəsinin məqsədi əlbəttə ki, beynəlxalq ictimaiyyəti çaşdırmaqdır, amma elə məhz beynəlxalq ictimaiyyət də bunun fərqindədir. Daha dəqiq desək, ilk növbədə erməni baş nazirin ikiüzlülüyünün fərqindədir və ikiüzlülük şousu göstərdiyi tamamilə aydın şəkildə görünür.

## Ermənistanın baş naziri hansısa dəstək üçün belə ikiüzlülük şousunu göstərir

Nyu-Yorkda BMT-nin baş katibi Antonio Quterreşlə görüşündə Ermənistanın baş nazirinin məhz Azərbaycanla sülh müqaviləsini müzakirə etməklə, əslində, tamamilə başqa niyyət güddüyü dərhal məlum oldu. Məlum oldu ki, iki daşın arasında küçə nümayişlərindən istifadə edərək hakimiyyət kürsüsünü ələ keçirən Nikol bu dəfə də hansısa dəstək üçün belə ikiüzlülük şousundan istifadə edirmiş. "BMT-nin Ermənistanın regionda sülhə nail olmaq və sabitliyi təmin etmək səylərinə dəstəyinin vacibliyindən" danışan erməni baş nazirin qarnının ağrısının məhz yenə də dəstək olduğu ortaya çıxır. Yəni, beynəlxalq tərəfdaş dediklərinin belə gözü görür ki, o dəstək naminə ikiüzlülük edirmiş. Ermənistanın guya sülhməramlı ölkə olduğunu göstərməyə çalışan Vovayevic ilk növbədə məhz buna görə ikiüzlülük şousu göstərməli olub. Görünən odur ki, bu şouya hətta çoxdan hazırlıqlı olub.

## Özünü hər şeydən xəbərsiz, hətta sülh quşu kimi göstərməklə kimləri isə yox, yalnız özünü aldatmış olur

Sual olunur ki, guya Azərbaycanı açıq şəkildə sülhə çağıran biri, nə əcəb digər tərəfdən aktiv hərbiləşdirmə siyasəti aparır? Son vaxtlar Hindistan, Fransa və Amerika istehsalı olan silahlarla intensiv şəkildə arsenal doldurulursa, özünü və ölkəsini sülhsevər göstərməyə çalışmasına ikiüzlülükdən başqa nə ad vermək olar? Hələ də ermənilər sərhəddə təxribatlar törətməyə çalışırlarsa, Paşinyan hansı üzlə ölkəsinin sülh niyyətində olduğundan dəm vurur? Əgər mina terroru davam edirsə, əgər hələ də günahsız mülki əhali Ermənistan tərəfinin basdırdığı minaların qurbanına çevrilirsə, hələ də Paşinyan hakimiyyəti mina xəritələrini verməkdən boyun qaçırırsa, yaxud yanlış xəritələr təqdim edirsə, hansı sülhdən danışılır və bu simasızlığın adı ikiüzlülük deyilmi? Özünü hər şeydən xəbərsiz kimi, hətta sülh quşu, sülh göyərçini kimi göstərən Nikol Paşinyan beynəlxalq platformalarda ikiüzlülük şousu göstərməkdə davam edir. Bəlkə də bununla kimləri isə aldatmağa çalışır, amma başa düşə bilmir ki, bununla ancaq özünü və öz ölkəsini, bütövlükdə erməni xalqını, erməni cəmiyyətini, hayların özlərini aldatmış olur. Bir sözlə, özünün ikiüzlülük şousu ilə heç kimi aldada bilmir və öz xislətini, erməni xislətini bir daha, növbəti dəfə ortaya qoymuş olur.

***İnam Hacıyev***

# Bahalaşma niyə dayanmır?

## Səbəblər və çıxış yolları

***Son illərdə ərzaq məhsullarının qiymətlərinin davamlı bahalaşması müşahidə olunur. Bunun bir neçə səbəbi var. Bəzən deyirlər ki, dünyadakı vəziyyətlə bağlıdır. Lakin bu yeganə arqument deyil. Biz görürük ki, dünyada bəzi məhsulların qiyməti ucuzlaşır, amma bizdə ucuzlaşmır. Digərləri isə deyirlər ki, yerli istehsalın azalması ilə bağlıdır. Lakin görürük ki, yerli istehsalı azalmayan məhsullarda bahalaşma var. Ümumilikdə ərzağın bahalaşması daha çox iki səbəblə- xarici və daxili amillərlə bağlıdır. Burada isə daxili amilin payı daha çoxdur. Məsələn, biz görürük ki, xaricdə taxılın qiyməti ucuzlaşdı, bizdə isə heç bir fərq etmir. Yerli istehsalda isə xərclər artır. Deməli səbəblər birtipli deyil, fərqli səbəblər var və hamısının burada rolu var.***



Bir-bir baxaq. Ümumiyyətlə, dünyada gedən proseslər, iqlim dəyişikliyi, quraqlıq və sair proseslər ərzaq istehsalını azaldır. Bu bütün ölkələrdə qiymətlərə təsir göstərir. Bəzi ölkələrdə bu yeganə səbəbdir. Lakin bizdə yeganə səbəb bu deyil. Bizdə bu həm də subyektiv səbəblərlə - korrupssiya amili, monopliya məsələləri, sahibkarlara, fermerlerə müxtəlif maneələr və s. ilə bağlıdır.

Azərbaycanda əhalinin ərzaq təminatı 50 faizdən artıq idxaldan asılıdır. Bəzi ərzaq məhsullarında isə bu rəqəm 70-80 faizə çatır. Yerli isatehsal ölkənin tələbatının yarısını belə ödəmir. Halbuki, Azərbaycanda kənd təsərrüfatı ilə əhainin 40 faizə qədəri məşğul olur.





Hökümətin qarşısında məqsəd qoyulmuşdu ki, ərzaq təhlükəsizliyini təmin edək, amma edə bilmirik, əksinə hər il aqrar sektorda tənəzzül görürük. Statistikalar da bunu göstərir. İldən-ilə idxal artır, istehsal azalır. Bu, heyvandarlıq, bitkiçilik və digər sahələrə də aiddir. Nəticədə də, idxaldan asılılığımız bahalaşmaya səbəb olur.

İkinci səbəb, sahibkarlara, fermerlərə, əkinçilərə yaradılan maneələrdir. Məsələn, suvarma işi yaxşı təşkil olunmayıb deyə su ilə bağlı problemlər var. Heyvandarlar üçün örüş yerləri problemi var, yemin qiyməti də bahalaşır.

Bundan əlavə, kəndlilərin öz məhsullarını rahat şəkildə bazara çıxarması təmin olunmadığına görə, sahələrdə 20-30 qəpiyə alınan məhsul paytaxtada, iri şəhərlərdə 1-2 manata satılır. Yəni, məhsulu əkib-becərən yox, dəllallar, bazarları zəbt etmiş alverçilər qazanır. Bu halda istehsalçı da, istehlakçı da uduzur, ortada qazanan dəllallardır. Kəndli məhsulunu yerində 20 qəpiyə satır, mən burda 1 manata alıramsa, ortadakı 80 qəpiyi dəllallar qazanır.

Bundan başqa, istehsalçılara qarşı çoxsaylı maneələr, əngəllər, bürokratik yanaşma amilləri var.Bu səbəbdən də, aqrar sektora milyardlarla pul ayrılsa da, bu sahədə ciddi irəliləyiş yoxdur. Halbuki, öz potensialına görə, Azərbaycanda neftdən sonra ən gəlirli sahə aqrar sektordur. Aqrar sahə həm də yüngül və yeyinti sənayesi deməkdir. Təəssüf ki, biz bunu da qura bilməmişik. Xammal ixracatçısına çevrilmişik. Məsələn, məhsulu emal edə bilmirik, xammal kimi ucuz qiymətə xaricə satırıq, oradan da dayanmadan hazır məhsullar idxal edirik. Nəticədə, özümüzdə 5 manata başa gələsi məhsulu xarici ölkədən 15 manata alırıq. Burda milyardlarla pul itiririk. Bu, digər sahələrə də aiddir.

Məhsulun maya dəyərinin artmasına da bir neçə amil təsir edir. Son illərdə suyun, bitkiçilik və heyvandarlıq üçün dərmanların, yanacağın qiyməti artır. Təbii ki, bu da bütün istehsalçılara zərbə vurur. Həm də məhsulların maya dəyərini artırır.

Əlavə olaraq, bazarda tələb-təklif məsələsi də var. Tələb təmin olunmursa, qiymətlər bahalaşır. Ona görə də yeganə şərt məhsul bolluğunun təmin olunmasıdır. Məhsul bolluğununu da idxalla təmin etmek doğru deyil. Birincisi, ölkə bazarına mənşəyi məlum olmayan keyfiyyətsiz məhsullar gəlir. İkincisi, ölkədən küll miqdarda valyuta çıxır. Üçüncüsü, bizim yerli istehsalçı sıradan çıxır, bazarlar xarici məhsulla dolur. Bunların hamısı ölkə iqtisadiyyatına zərər vurur, insanları işsiz, torpaqlarımızı istifadəsiz qoyur.

Ölkəmizdə aqrar siğorta sistemi də işləmədiyinə görə fermerlər bir çox hallarda zərərə düşür. İnsanlar əziyyət çəkib, hektarlarla yerdə əkin-biçin edir. Son nəticədə, əldə etdiyi gəlir xərcləri ödəmir. Və gələn il əkmək istəmirlər. Artıq bu sahə sıradan çıxır. Nəticədə həmin məhsullar xaricdən gətirilir. Halbuki, bizim ele potensialımız var ki, Azərbaycan öz əhalisini tam şəkildə bütün ərzaq məhsulları ilə təmin edə bilər. Əlavə olaraq da böyük ixrac imkanlarımız var. Sadəcə, Kənd Təssərrufatı Nazirliyi aqrar sahədə düzgün stimullaşdırma aparmır, düzgün proqramlar yerinə yetirmir. Baxmayaraq ki, milyardlarla dövlət vəsaiti ayrılır, bu pullar batır. Deməli, idarəetmədə problem var. Buna görə, sahibkarlara maneələr, korrupsiya aradan götürülməlidir.

Ölkədə bolluq və ucuzluq yaratmağın çox sadə üsulu var. Bunun üçün bütün ölkə boyu daimi yarmarkalar təşkil olunmalıdır. Bakı şəhərində 10, Gəncə, Sumqayıt şəhərlərində 2 yerdə, digər şəhərlərdə 1 yerdə ilin 365 gün daimi yarmarkalar olmalıdır. Bu yarmarkalara ancaq öz məhsulunu istehsal edən kəndlilər, sahibkarlar, fermerlər buraxılmalıdır. Bu halda onlar öz məhsulunu sahədə 20 qəpiyə deyil, orada 60 qəpiyə satacaq, 3 qat gəlir əldə edəcək. Biz də alıcı olaraq 1,2 manata yox, 60 qəpiyə almış olacağıq. Deməli, biz burda 2 dəfə də irəli düşürük, dəllallar isə ortadan çıxır. Nəticədə, öz məhsulundan yaxşı gəlir əldə edən sahibkarlar, fermerlər, əkinçilər gələn il daha çox məhsul istehsal etməyə çalışacaq, öz imkanlarını genişləndirəcək. Texnika alacaq, daha çox işçilər tutacaq, çalışacaq ki, çox məhsul istehsal etsin.

Aqrar sektorda məhsul azalması sənayeyə də zərər vurur. Çünki yeyinti sənayesi, yüngül sənaye artıq təmin olunmur. Biz niyə duru yağları Rusiyadan, Ukraynadan almalıyıq?! Özümüzdə qarğıdalı, zeytun, günəbaxan bitmir? Biz niyə konservləşdirilmiş məhsulları, məsələn adicə tomatı xarici ölkədən idxal etməliyik? Pomidorumuz yoxdur? Eləcə də davamlı olaraq ətin qiyməti qalxır. Niyə? Çünki heyvandarlıqda da maya dəyəri artıb, örüşlər azalıb. Bu kimi məsələlər ətin qiymətinin bahalaşmasına gətirib çıxarır. Nəticədə əhalinin sosial vəziyyəti ağırlaşır və ərzağın bahalaşması dayanmır.

Bahalaşmanın qarşısını almaq üçün ciddi dövlət qroqramı qəbul olunmalıdır. Ölkə əhalisinin yarısı Bakı və Abşeron zonasına yerləşib. Çünki regionlarımızın heç birində iş imkanları yoxdur. Dövlət elə siyasət yürütməlidir ki, şəhərlərə axışmış əhali geri qayıtsın, orada iş yerləri ilə təmin olunsun, təssərrüfatlar yaratsın, heyvandarlıqla məşğul olsun, əkin-biçin etsinlər. Regionlarda kiçik istehsal sexləri təşkil olunmalıdır.

Bundan əlavə, insanlara güzəştli şərtlərlə kredit verilməlidir ki, gedib özünə iş yaratsın. Nəticədə, əhali bir yerə doluşmaz, Bakının da yükü azalar. Regionlarda da iqtisadi aktivlik olar. Məşğulluq məsələsi aradan qalxar. Xaricə çıxan valyutamız azalar. Dövlətin sosial yükü də azalar. Bu halda ünvanlı sosial yardım verməyə də ehtiyac qalmayacaq, insanlar özləri qazanacaq.

***Elçin Bayramlı***

# Mədəkiçiltmə əməliyyatı və onun DƏHŞƏTLİ NƏTİCƏLƏRİ

***Son zamanlar trendə çevrilən mədəkiçiltmə əməliyyatı arıqlamaq və daha sağlam həyat sürmək istəyən bir çox insan üçün perspektivli həll yolu ola bilər. Ancaq hər hansı bir cərrahi müdaxilədə olduğu kimi, bu prosedur da müxtəlif çətinliklər və gözlənilməz yan təsirlər gətirə bilər.***

SİA mövzu ilə bağlı araşdırma aparıb. Əməliyyatından sonra ən çox rast gəlinən təəssüf və şikayətlər:

Bu real həyat təcrübələri əməliyyat prosesini düşünənlər üçün mühüm ola bilər.



## Yeməkdən həzz almamaq

Mədəkiçiltmə əməliyyatından sonra bəzi xəstələrdə yeməyə qarşı laqeydlik və dad hissi azala bilər. Bu, əvvəlki kimi yeməkdən həzz almamağınıza səbəb ola bilər. Bu peşmanlıq əməliyyatdan sonra tez-tez rast gəlinən bir hadisədir və prosedurdan əvvəl yemək sevən insanlarda daha çox özünü göstərir.

Dad duyğusunun dəyişməsi və yeməkdən həzzin itirilməsi əməliyyatdan sonrakı dövrdə psixoloji və fiziki uyğunlaşma prosesinin bir hissəsi kimi baş verir. Ancaq bu vəziyyət uzun müddət davam edərsə, insanın psixoloji sağlamlığına mənfi təsir göstərə və yenidən kökəlmə riski yarada bilər. Qida asılılığı kimi pis vərdişlər təkrar yarana bilər, nəticədə mədə böyüməsi və çəki artımı olar.

Bu vəziyyəti idarə etmək psixoloq və ya həkimlə işləmək vacibdir. Mütəxəssislər sizə sağlam qidalanma vərdişləri yaratmağa və qida asılılığının öhdəsindən gəlməyə kömək edə bilər. Bu vəziyyət adətən əməliyyatın ilk 6 ayında daha çox özünü göstərir və zamanla azalır.



## Yavaş yemək vərdişinə düşməmək

Əməliyyatdan sonra sürətli yemək böyük problem ola bilər. Əməliyyatdan əvvəl yavaş-yavaş yemək vərdişinə yiyələnmək bu prosesi daha asan keçirməyə kömək edəcək. Sürətli yemək kiçik mədənizin çox dolmasına və yeməyin yapışmasına səbəb ola bilər. Bu vəziyyət həm narahat edici, həm də ağrılı ola bilər.

Yeməyin kiçik mədədə ilişib qalmaması üçün yeməklərinizi yavaş-yavaş və hərtərəfli istehlak etməlisiniz. Yeməyinizi udmazdan əvvəl, hər dişləmənin kartof püresi konsistensiyasına malik olduğundan əmin olun. Kiçik dişləmələr alın və yavaş-yavaş yeməyə davam edin. Hər yeməkdə 10-15 dəqiqə ərzində təxminən 2 xörək qaşığı yemək yeyin. Bu diqqətli yemək təcrübələri yemək vaxtlarını daha idarəolunan edir və yeməkdən həzz almanıza kömək edir.

Bu vəziyyəti daha yaxşı idarə etmək üçün ən yaxşı yanaşma, diqqətli yemək vərdişləri qazanmağınıza və həddindən artıq yemək dövriyyəsini pozmağınıza kömək etmək üçün təlim keçmiş diyetisyen, psixoloq və ya həkimlə işləməkdir. Mütəxəssislər sizə yavaş-yavaş yeməyə və və sağlam qidalanma vərdişlərini mənimsəməyə kömək edə bilər.

Araşdırmalar göstərir ki, yavaş-yavaş yemək vərdişi toxluq hissini artırır və çəkiyə nəzarəti təmin edir. Əməliyyatdan sonra sürətli yemək yeyən xəstələrin 60%-nin mədə narahatlığı və qida saxlama kimi problemlərlə üzləşdiyi bildirilir.

## Arıqladıqdan sonra artıq dəri problemi

Əməliyyatdan sonra sürətli çəki itkisi tez-tez rast gəlinən bir hadisədir və çox vaxt artıq dəri problemləri ilə nəticələnir. Arıqlama miqdarından, yaşınızdan və dəriniz elastikliyindən asılı olaraq, bədəninizdə sıx bir dərinin olmasını gözləyə bilərsiniz. Piylənmənin artması ilə daha çox insan arıqlama əməliyyatına müraciət edir və bunun nəticəsində artıq dəri problemləri yaşayır.

Dərinin çıxarılması əməliyyatı, bariatrik cərrahiyyədən sonra edilən plastik əməliyyatdır və həddindən artıq çəki itkisi səbəbiylə bədəndən artıq dərini çıxarmaq məqsədi daşıyır. Boyun, qollar, çiyinlər, sinə, qarın, kürək, xüsusi bölgələr və ayaqlar kimi nahiyələrdə yığılan artıq dərilər bu əməliyyatla çıxarıla bilər. Bu proses özünüzə inamı, rahatlığınızı artıra, paltarınızı geyinməyinizi və məşq etməyinizi asanlaşdıra bilər.

Əməliyyatdan sonra ən çox narahatlıq doğuran məsələlərdən biri də sürətli arıqlama nəticəsində qalan dərinin boş və sallanmasıdır. Bu vəziyyət mədə, yuxarı qollar və ayaqlar kimi bölgələrdə özünü göstərə bilər. Xoşbəxtlikdən, artıq dərini sıxmağa kömək edə biləcək bir çox cərrahi və qeyri-cərrahi dərini gücləndirmə prosedurları var. Bu nöqtəyə çatdığınız zaman düzgün həll yolu tapmaq üçün bir mütəxəssislə məsləhətləşə bilərsiniz.

Tədqiqatlar göstərir ki, əməliyyatı keçirən xəstələrin 30-50%-i əməliyyatdan sonrakı dövrdə bədən dismorfiyası yaşayır. Bildirilib ki, bu xəstələrin 25%-də uzun müddət ərzində ciddi psixi sağlamlıq problemləri yaranır. Bu səbəbdən əməliyyatdan əvvəl və sonra psixoloji dəstək almaq prosesin uğurlu idarə olunması üçün çox vacibdir.

## Cərrahiyyə sonrası saç tökülməsi

Əməliyyatdan sonra sürətli çəki itkisi saç tökülməsi kimi ümumi yan təsirlərə səbəb ola bilər. Bu vəziyyət adətən əməliyyatdan 3-6 ay sonra başlayır və 12 aya qədər davam edə bilər. Daha az qida istehlakı və qida maddələrinin udulmasının azalması bədəninizdə sürətli hormonal dəyişikliklərə səbəb olur, stressi artırır və saç tökülməsinə səbəb olur. Əgər əməliyyatdan əvvəl saçlarınız nazik idisə, tökülmələr daha çox nəzərə çarpa bilər, ancaq düzgün qidalanma və qulluqla bu problemi minimuma endirə bilərsiniz.

Saç tökülməsini minimuma endirmək üçün qısa məsləhətlər:

Protein qəbulu: Gündə ən az 60 qram protein istehlak edin.

Vitamin əlavələri: Mütəmadi olaraq tövsiyə olunan vitamin əlavələrini qəbul edin.

Biotin və Sink: Əlavə rejiminizə biotin və sink əlavə edin.

Xüsusi şampun istifadəsi: Nioxin kimi saç tökülməsinə qarşı təsirli şampunlardan istifadə edin.

Dəniz məhsulları istehlakı: Diyetinizə omeqa-3 yağ turşuları ilə zəngin dəniz məhsulları əlavə edin.

Bu addımlar saç tökülməsinə nəzarət etməyə və sağlam saç böyüməsini təşviq etməyə kömək edə bilər. Mədə əməliyyatından sonra saç tökülməsi ilə qarşılaşan bir çox insan, düzgün qidalanma və baxımla saçlarının daha güclü və sağlam qayıtdığını müşahidə edir.

Tədqiqatlar göstərir ki, xəstələrin 30-40%-də bu əməliyyatdan sonra saç tökülməsi müşahidə olunur. Yetərincə protein və vitamin qəbulu saç tökülməsini azaltmaqda mühüm rol oynayır və saçın sağlamlığını yaxşılaşdırır. Bu prosesdə biotin və sink kimi əlavələrdən istifadə saç tökülməsini 50% azalda bilər.



Bir xəstənin təcrübəsi belə deyir: "Əməliyyatdan qətiyyən peşman deyiləm. Kaş ki, yemək zamanı etmək məcburiyyətində qalacağım böyük emosional dəyişiklik üçün bir az daha hazırlıqlı olaydım." Bu cür təcrübələr qida ilə münasibətinizin nə qədər dərindən dəyişəcəyini başa düşməyin vacibliyini vurğulayır.

***Ardı Səh. 7***

# Mədəkiçiltmə əməliyyatı və onun DƏHŞƏTLİ NƏTİCƏLƏRİ

Əvvəli Səh. 6

Elmi məlumat: Araşdırmalara görə, mədə kol əməliyyatı keçirən xəstələrin 80%-i əməliyyatdan sonrakı ilk ildə əhəmiyyətli miqdarda çəki itirir. Bununla belə, bu uğuru saxlamaq üçün xəstələrin 60%-i əməliyyatdan sonrakı ilk beş il ərzində pəhriz və idman planlarına ciddi şəkildə riayət etməlidir.

Morbid piylənmənin həzm sistemi xərçəngləri üçün sübut edilmiş risk faktoru olduğu bilinir. Bundan əlavə, elmi məlumatlar sübut edib ki, piylənməyə görə 10-dan çox xərçəng növünün artması var və üstəlik, bariatrik cərrahiyyə ilə əldə edilən arıqlama bu xərçənglərin əhəmiyyətli dərəcədə azalmasını təmin edir. Buna baxmayaraq mövzu ilə maraqlanan obezite cərrahları bir yana, piylənmə əməliyyatının uzun vədədə xərçəngə səbəb olacağı, xüsusən də mədəaltı vəzi xərçənglərində artım olduğu iddiası bəzən mediaya xüsusilə daxili xəstəliklər mütəxəssisləri tərəfindən təqdim edilir.

Mədəaltı vəzi xərçəngi xərçəngdən ölüm hallarının 5-ci səbəbidir. Yüksək göstərici diaqnozun çətinliyi və bir çox halların gec aşkarlanması ilə bağlıdır. Mədəaltı vəzi xərçəngi ilə piylənmə cərrahiyyəsi arasındakı əlaqəyə dair elmi ədəbiyyatı skan etdiyimiz



zaman bu qavrayışın 2001-ci ildəki məqalənin təhrif olunmuş sitatından qaynaqlandığını görürük. Bu məqalədə deyilir ki, xora səbəbiylə mədə rezeksiyası mədəaltı vəzi xərçəngi riskini artıra bilər.

## Mədəkiçiltmə əməliyyatı xərçəngə səbəb olurmu?

Bu cərrahiyyə və xərçəng arasındakı əlaqə bir çox araşdırmada müzakirə edilən bir mövzudur. Əksər tədqiqatlar göstərir ki, bu cərrahi müdaxilə bəzi xərçəng növlərinin, xüsusən də piylənmə ilə əlaqəli olanların riskini azaldır. Bu cərrahi prosedurla əlaqəli xərçəng risklərinin necə təsirləndiyinə dair tapıntılar aşağıda verilmişdir:

Döş, yumurtalıq və uşaqlıq xərçəngi kimi bəzi xərçəng növlərinin riskində əhəmiyyətli azalma müşahidə edilmişdir. Əməliyyatdan sonra bu xərçəng növlərinin azaldılmasında təsirli olan əsas amillərdən biri həddindən artıq çəki itkisidir.

Bəzi tədqiqatlar kolorektal xərçəng riskinin artması əlamətlərini tapsa da, bu əlaqə qəti şəkildə sübut edilməmişdir. Buna görə də, mədəkiçiltmə əməliyyatı və xərçəng riskləri arasındakı əlaqəni aydınlaşdırmaq üçün daha çox araşdırmaya ehtiyac var. Ümumiyyətlə, bu cərrahi metodun piylənmə ilə əlaqəli xərçənglərə müsbət təsirinin potensial riskləri üstələdiyi hesab edilir. Bu nəticələr xəstələr üçün fərdi müalicə və təqib strategiyalarının əhəmiyyətini vurğulayır.

## Mədəkiçiltmə əməliyyatından sonra hansı xərçəng növləri görülə bilər?

Mədəkiçiltmə əməliyyatından sonra xəstə xüsusilə həzm sistemi xərçəngi riski altındadır.

## Əməliyyatdan əvvəl xərçəng müayinəsi lazımdırmı?

Mədə əməliyyatından əvvəl tövsiyə olunan xərçəng müayinəsi xəstələrin sağlamlığı üçün böyük əhəmiyyət kəsb edir. Xüsusilə, həzm sistemi xərçəngləri bu cərrahi əməliyyatın təhlükəsizliyinə birbaşa təsir göstərə bilər. Endoskopik müayinə mədə və qida borusu xərçənglərini erkən mərhələdə aşkar etmək imkanı verir. Bu skan üsulu əməliyyatın müvəffəqiyyət nisbətini artırır və ağırlaşma riskini minimuma endirir.



## Xəstələrin mövcud sağlamlıq vəziyyətini nəzərə alaraq aşağıdakı qiymətləndirmələr aparılmalıdır:

- Yuxarı həzm sistemi endoskopiyası: Mədə və yemək borusu nahiyəsini ətraflı şəkildə araşdırır və xərçəng əlamətlərinə baxır.

- Hərtərəfli qan testləri: Anemiya və ya izah olunmayan dəyər dəyişikliklərini müəyyən edin.

- Xəstənin keçmişinin ətraflı təhlili: Həzm sistemi qanaxması kimi simptomları qiymətləndirir.

Bu proses xəstənin təhlükəsizliyini maksimum dərəcədə artırır və mümkün bədxassəli şişlərin əməliyyata müdaxilə etməzdən əvvəl idarə olunmasını təmin edir.



## Mədəkiçiltmə əməliyyatından sonra xərçəngin əlamətləri hansılardır?

Mədəkiçiltmə əməliyyatından sonra yarana biləcək xərçəng əlamətləri həzm sisteminə xas problemlər kimi özünü göstərir. Xəstələr tez-tez mədə ağrısı ilə qarşılaşırlar, bu da davamlı ola bilər. Bundan əlavə, səbəbsiz kilo itkisi müşahidə olunur ki, bu da adətən iştahsızlıq ilə bilinir. Qatı qidalar yeyərkən udma çətinliyi xüsusilə aydın olur. Ürəkbulanma və ya qusma başqa bir ümumi simptomdur. Həzm sistemi ilə əlaqəli simptomlara əlavə olaraq, ümumi sağlamlığa təsir edən bəzi əlamətlər var:

- zəiflik
- yorğunluq hissi
- anemiya simptomları

Bu əlamətlər xərçəngə işarə kimi görünsə də, müxtəlif sağlamlıq problemlərindən də qaynaqlana bilər. Buna görə də, bu cür simptomlarla qarşılaşan xəstələrin dərhal həkimə müraciət etmələri çox vacibdir. Çünki erkən diaqnoz müalicənin uğuruna birbaşa təsir edir.

## Mədəkiçiltmə əməliyyatı keçirənlər mütəmadi olaraq xərçəng müayinəsindən keçməlidirmi?

Bu cərrahiyyə sonrası xərçəng müayinəsinin əhəmiyyəti xəstələrin sağlam həyat sürmələri üçün kritik faktordur. Mümkündür ki, mədə əməliyyatı keçirmiş şəxslərdə piylənmə ilə bağlı xərçəng riskləri azalır. Lakin bu, xərçəngin müntəzəm müayinəsinə ehtiyacı aradan qaldırmır. Bəzi risklər əməliyyatdan sonra da davam edə bilər və bu risklərin idarə edilməsi erkən diaqnozla mümkündür. Xərçəng müayinələri aşağıdakı xərçəng növləri üçün xüsusilə vacibdir:

- döş xərçəngi
- uşaqlıq xərçəngi
- böyrək xərçəngi
- prostat xərçəngi
- kolon xərçəngi
- Mədə-bağırsaq sistemi xərçəngləri

Bu müayinələr xəstələrin uzunmüddətli sağlamlığını qorumaq üçün lazımdır. Xəstələrin mütəmadi olaraq həkimləri ilə görüşmələri və lazımi sağlamlıq müayinələrindən keçmələri tövsiyə olunur.

## Mədəkiçiltmə əməliyyatından sonra xərçəng necə müalicə olunur?

Mədə əməliyyatından sonra xərçəngin müalicəsi xəstənin ümumi vəziyyətinə və xərçəngin mərhələsinə uyğun olaraq diqqətlə planlaşdırılır. Əvvəlcə xəstənin qidalanma vəziyyəti hərtərəfli qiymətləndirilir. Yanlış qidalanma müalicənin effektivliyini azalda bilər, ona görə də qidalanma dəstəyi həyati əhəmiyyət kəsb edir. Kimyaterapiya və radioterapiya üsulları xərçəng hüceyrələrini hədəf alır və xəstəliyin inkişafının qarşısını almağa çalışır. Bu prosesdə:

- Kimyaterapiya xərçəng hüceyrələrini məhv etmək üçün istifadə olunur.

- Yerli xərçəngin müalicəsində radioterapiyaya üstünlük verilir.

- Müalicə prosesində multidissiplinar komanda iştirak edir.

## Bu komanda adətən aşağıdakı ekspertlərdən ibarətdir:

- Onkoloq xərçəng müalicəsinin bütün aspektlərini idarə edir.

- Cərrah lazımi cərrahi müdaxilələri həyata keçirir.

- Dietoloq xəstənin qidalanma planını təşkil edir və həyata keçirir.

- Xəstənin müalicəyə reaksiyası mütəmadi olaraq qiymətləndirilir və lazımi düzəlişlər edilir. Beləliklə, müalicə prosesi xəstənin ehtiyaclarına uyğun formalaşdırılır və ən yaxşı nəticələr hədəflənir. Bu yanaşma xəstənin həm fiziki, həm də psixoloji dəstəklənməsini təmin edir.

***Ayşən Vəli***

# Özgə qapısına sığınan insan şərafətli ömür yaşaya bilməz

## Xaricdəki antimilli ünsürlərin əsas fəallarından olan Vidadi İsgəndərlinin fransız zorakılığına məruz qalması deyilənlərə əyani sübutdur

Azərbaycanda doğulub, bu Vətənin çörəyini yeyib, suyunu içən, hər cür imkanlarından bəhrələnən elə insanlar var ki, sonradan təsir altına düşdüklərindən öz doğma yurduna üzüdönüklük edir. Son vaxtlar xaricdəki antimilli ünsürlərin Azərbaycana qarşı qarayaxma kampaniyasında əsas trollar olaraq iştirak etmələri üzüdönüklüyün ən iyrənc xarakter aldığını göstərir. Hər gün müxtəlif sosial şəbəkələrə çıxan Sevinc Osmanqızı, Trol Sadıqlı, Qabil Məmmədov, Vidadi İsgəndərli, Məhəmməd Mirzəli, Orduxan Temirxan və digərləri Azərbaycan dövləti və xalqı haqqında təhqiramiz ifadələr səsləndirir, ittihamlar irəli sürürlər. Sanki bunlara milli varlığımızı təhqir etməkdə yarışa giriblər-kim daha çox söyə, kimlər daha üstün ittihamlar irəli sürə bilər. Niyə, səbəb nədir? Pul, var- dövlət qeyrətdən, namusdan üstündürmi? Axı sizlər Azərbaycanda doğulmusunuz, bu eldə, obada sizlərin yaxınlarınız, doğmalarınız yaşayır. Ən azı olduğunuz ölkə də sizləri azərbaycanlı olaraq tanıyırlar. Çoxlarınızın cibində hələ də Azərbaycan pasportu var. Hansısa başqa bir millətin nümayəndəsi ilə qarşılaşanda söhbət əsnasında "haralısan və hansı millətin nümayəndəsisən" sualına "Azərbaycandanam, milliyətim azərbaycanlıdır", - deyə bildirirsiniz. Lakin intenet TV-lərin önünə çıxanda Azərbaycanın milli və dövlətçilik maraqlarını təhqir edirsiniz. Bunun adı satqınlıq və xəyanətdir. Heç bir halda bu fəaliyyətə haqq qazandırmaq olmaz. İnandırıcı deyil ki, sizlərdən istifadə edən xüsusi xidmət orqanlarının əməkdaşları da sizlərə də ciddi yanaşsınlar. "Söyüş müxalifəti"nin əsas fəallarından olan Vidadi İsgəndərlinin döyülməsi və sonra da bıçaq zərbələri ilə öldürülməsi bir daha onu təsdiq etdi ki, əlaltılarını istifadə edənlər, lazım gələndə onun həyatına qəsd etməyi də bacarırlar.



### Vidadi İsgəndərlinin öldürülməsində Fransa xüsusi xidmət orqanlarının əli ola bilər

"Söyüş müxalifəti"nin fəllarından olan Vidadi İsgəndərlinin Azərbaycana qarşı düşmən mövqeyi ilə seçilən və ermənilərin daha çox məskunlaşdıqları Fransaya sığınması təəccüblü görünməyə bilər. Çünki Azərbaycanın milli varlığını təhqir edən ünsürlərin böyük hissəsi Fransaya sığınıblar. Fransanın qaranlıq dairələri onları ev-eşiklə, pul- para və ofislə təmin edib. Qarşılığında onlar Azərbaycanı təqdim edilən sifarişlərə uyğun olaraq təhqir edir, xalqın heysiyyatına toxunan videolar paylaşırlar. Fransada oturub AXCP sədri Əli Kərimlinin qaranlıq işlərini, həm də Fransanın xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetirən Qənimət Zahid bildirib ki, Mülyuz (Mulhouse) şəhərində yaşayan Vidadi İsgəndərli çoxsaylı bıçaq zərbələrinə məruz qalıb: "Bu şəhərdə yaşayan Vidadi İsgəndərli sentyabrın 29-u səhər saatlarında naməlum adamların hücumuna məruz qalıb. Hücum edənlər səhər saat 07:30 radələrində onun yaşadığı evin pəncərəsini qıraraq içəri giriblər və Vidadi İsgəndərliyə çoxsaylı bıçaq zərbələri vurublar". Q.Zahid onu da qeyd edib ki, V. İsgəndərli reanimasiyadadır, vəziyyəti ağır qiymətləndirilir".

Yazını hazırlayarkən məlum oldu ki, daha bir söyüş müxalifətinin üzvü, hansı ki, erməniprəst dairələrin sifarişlərinə uyğun olaraq xalqımız təhqir edən Vidadi İsgəndərli xəstəxanada ölüb. Gözlənilmədən həkim nəzarəti altında olan şəxsin ölməsi müəmmalı suallar yaradır. Çünki, V.İsgəndərlinin qardaşı Oqtay İsgəndərli xəbər saytlarından birinə açıqlamasında qardaşının vəziyyətinin heç də ağır olmadığını və yaşamasına ümidlər olduğunu bildirmişdir: "Həkimlər mənə onunla 1 dəqiqəlik görüşmək imkanı yaratdılar. Çünki reanimasiyada, narkozun təsiri altında idi. Dedi ki, səhər saat 7 radələrində 3 nəfər pəncərədən evinə daxil olub. Yataq otağında bir nəfər ona bıçaq çəkib, 2 nəfər də qapını bağlayıb. Özünün sözlərinə görə, həmin şəxs bıçaqla ona alın nahiyyəsindən çoxlu zərbələr endirib. Zərbələrin çoxu qardaşımın əlinə dəyib. Bıçağı vuran şəxs cüssəli olmadığı üçün qardaşım onu itələyib yerə yıxıb. Daha sonra polisi çağırıb və içəri girən şəxslər qorxub qaçıblar. Onlar maskalı olub və heç bir dildə danışmayıblar. Buna görə də kimlikləri və hansı millətdən olduqları bilməyib".. Oqtay İsgəndərlinin danışığından belə başa düşülür ki, Vidadi İsgəndərlinin vəziyyəti deyildiyi qədər ağır deyil. O, danışacaq vəziyyətdədir və qardaşının sözlərinə görə zərbələrin çoxunu da əlindən, qolundan alıb.

### Satqınlara rəhm edilmir

Vidadi İsgəndərlinin qardaşının sözlərindən o məlum olur ki, V.İsgəndərli yenidən ayağa qalxıb, söyüş ritorikasını davam etdirə bilərdi. Lakin yayılan məlumatlara görə, o ölüb və ya öldürülüb. Sonuncu versiyanın üzərində dayanmaq və düşünmək olar. Ən azı ona görə ki, Fransa dünyada insanlığa və bəşəriyyətə qarşı vəhşi fəaliyyəti və əməlləri ilə tanınıb. Fransanın hakim elitasının əmri ilə müstəmləkə altında saxladıqları milyonlarla insanı qətlə yetiriblər. Fransız əsgərlərinin Nigeriyada, Əlcəzairdə, Fransız Qvianasında, Yeni Kaledoniyada və digər müstəmləkə altında saxladığı ərazilərdə törətdiyi vəhşiliklər dünyanı sarsıdıb, xalqları dəhşətə gətirib. Belə bir vəhşi rejimin V.İsgəndərlinin əzməsi, onu sıradan çıxartması adi haldır. Görünür, V.İsgəndərli haradasa ciddi səhvlərə yol verib, yalan danışıb və ya sifarişlərin icrasında yanlışlıqlar törədib. Ona görə də cəzalandırılması vacib hesab olunub. Necə ola bilər ki, 24 saat video kameraların izlədiyi binaya hücum təşkil edilsin? Şübhəli məqam həm də ondan ibarətdir ki, V.İsgəndərli özü dəfələrlə qeyd edirdi ki, onu yerli polis kimdənsə və nədənsə mühafizə edir. Hətta video paylaşmalarının birində V.İsgəndərli ona parkda hücum edən bir qadının yerli polis yanına çağırıb, danlamış və bununla da problem aradan qalxmışdır. Bu dəfə isə yerli polis filan köməyə çatmayıb və V.İsgəndərli bıçaqlanıb. Yəqin ki, Fransa polisi cinayət hadisəsini ört-basdır edəcək. Çünki dərinə gedilməsi və araşdırma filanın aparılması izlərin Fransa xüsusi xidmət orqanlarının oturduqları binalara gedib çıxa bilər. Bu isə onların ifşası demək olar.

***İLHAM ƏLİYEV***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Erməni sevgisi müsəlman həmrəyliyini üstələyirsə...

**İordaniyalı rejissor humanizm dəyərlərinə belə bağlıdırsa, niyə Qarabağda ermənilərin dəmir borulara doldurub öldürdükləri azərbaycanlı körpələr barədə film çəkmir?**

Zaman - zaman aktual olan bir məsələ barədə danışacam bu gün. Bütün dünyada müsəlmanların nədən birlik ola bilməmələri, məzhəblərə, dini qruplaşmalara, cahil hekayələrə bölünüb həmrəylik yerinə bir-birini didib parçalamaları nəhəng sual işarəsi kimi durub qarşımızda. Xüsuslə torpaqlarımızı 30 ildən çox işğal altında saxlayan, Qarabağdakı məscidlərimizə donuz və inəklər doldurub murdarlayan, azərbaycanlı körpələri diri-diri yandırıb oda atan ermənilərə bəzi müsəlman ölkələrinin qardaş kimi yanaşmaları bizdə ciddi etiraz yaradır.

Özü də bilə-bilə ki, ermənilər günahsız müsəlman körpələri oda qalayıb genosid törədir, islami dəyərləri video çarxlarda təhqir edib ələ salır, gedib onlarla əl sıxışırlar. Bunların müsəlman, haqq-ədalət "həmrəyili" budur. Bu cür münasibətə etiraz etməkdə tam haqlıyıq. Çünki 44 günlük müharibə zamanı qonşuluğumuzdakı müsəlman ölkəsinin rəsmi İrəvana yönəlik həmrəylik bəyanatlarını, o zaman Qarabağdakı erməni separatçılarına göndərilən silah dolu maşın karvanlarını yəqin ki, unutmamışıq və yaxşı xatırlayırıq. Özü də bu məsələdə bizim tam haqlı olduğumuz, terrora məruz qaldığımız halda qarşıdakı təcavüzkara müsəlman dəstəyini görmək bir başqa ağrıdır əlbəttə...

Bugünkü yazım iordaniyalı bir rejissorun erməni faşizminə haqq qazandıran filmi barədə olacaq. Çox təəssüflər olsun ki, erməni yalanlarının toruna bəzən müsəlman ölkələri də düşə bilir. Ermənilərin saxtakarlıq, şər şəbəkəsi İordaniya kimi ölkələrə qədər uzanır. Ermənistan mediası belə bir məlumat yayıb ki, İordaniya "Oskar"a təqdim etmək üçün "Artsax" haqqında sənədli film seçib. Sən demə, İordaniya 97-ci Akademiya Mükafatlarında "Ən Yaxşı Beynəlxalq Film" kateqoriyasında təqdim edilmək üçün erməni-iordaniyalı rejissor Sareen Hairabedianın "Mənim şirin torpağım" sənədli filmini seçib.

Sənədli film "amansız müharibənin" ortasında olan "Artsaxda" diş həkimi olmaq arzusunda olan 11 yaşlı Vrejedən bəhs edir. Separatçılığı alovlandırmağa xidmət edən və erməni terroruna haqq qazandırmağa çalışılan sənədli filmin qəhrəmanı kimi 11 yaşlı uşağın seçilməsi təsadüfi deyil. Bu, Azərbaycanı qaralamaq, "işğalda" suçlamaq üçün seçilən bir vasitədir. əlbəttdə bu işdə erməni diasporunun, onların əlindəki milyon dolların təsiri açıqca sezilir. Bu işlərdə püxtələşmiş erməni diasporu Avopada olduğu kimi, Şərqdə də öz siyasətini reallaşdırır. Həttda müsəlmanların özlərini özlərinə qarşı çevirməklə!

Bizim də diaspor "siyasətimiz" var. İldönümləri, bayramlar olanda səfirlik işçilərini, sürücü və xadimələri zala toplayıb "tədbir" keçirir, bununla da özümüz danışıb özümüz eşidirik" devizi altında gün keçirirlər. Nə isə...

Bu gün islam dövlətlərindən başlamış xristian ölkələrinə qədər hər kəs yaxşı bilir ki, Azərbaycan İslam Həmrəyliyi üçün ən çox səy göstərən, bu istiqamətdə mühüm addımlar atan ölkədir. Xüsusilə İslam dövlətləri arasında mədəni əlaqələr baxımından Azərbaycan dövlətinin gördüyü işlər daha effektli və nəticəgətirəndir. Üstəlik, Bakının Şərqlə Qərb arasında inteqrasiya və düşüncələrin dialoqu məkanına çevrilməsi də mühüm amildir. Amma min dəfə təəsüflər olsun ki, bəzi İslam dövlətləri təcavüzkar Ermənistanla "mehriban dostluq diplomatiyası" adı altında əlaqələr qurur, hətta bunu əndazəsini aşmaq şəklində reallaşdırırlar. Bilirsiniz Ermənistan rəsmiləri Avropa İttifaqı, Fransa, ABŞ və digər Avropa ölkələrində keçirdikləri görüşlər zamanı nə deyirlər? - biz hərtərəfdən müsəlman ölkələri ilə həmsərhədik. Daima müsəlman təzyiqi altındayıq. Bizi tək buraxmayın!

Hətta rəsmi İrəvanın daima Avropa institutlarında İslam əleyhinə kəskin mövqe sərgilədiyini bilə-bilə Ermnistanla dostuq edirlər sözdə "müsəlman ölkələri". Sual olunur: 30 illik işğal dövründə işğal altında qalan Azərbaycan torpaqlarındakı məscidləri, ibadət yerlərini, İslam mədəniyyətinə aid olan tarixi abidələri vəhşicəsinə məhv edən Ermənistan deyilmi? Məgər müsəlman ölkələrində bilmirlər ki, ermənilər bizim yarıdağılmış məscidlərdə heyvan, donuz, inək saxlayırlar. Bu, müsəlman aləminə edilən təhqir deyilmi? - Əlbəttə gözəl bilirlər. Sadəcə, həqiqət ondan ibarətdir ki, onları şüara çevirdikləri "İslam dəyərləri" deyil, öz maraqları düşündürür.

Gələk iordaniyalı rejissorun qondarma "artsax"da müharibə ortasında qalan, "əzabkeş" obrazında təqdim etdiyi 11 yaşlı Vrej barədə çəkdiyi 40 dəqiqəlik filmə. Əgər iordaniyalı rejissor humanizm dəyərlərinə bu şəkildə bağlıdırsa, niyə Xocalıda ermənilər tərəfindən dəmir boruların içinə doldurularaq öldürülən, anasının gözü qarşısında şişə çəkilən, tonqalda yandırılan azərbaycanlı körpələr barədə cəmi 10 dəqiqəlik film çəkmir? 11 yaşlı Vrejdən fərqli olaraq ana qucağındakı 5-6 aylıq südəmər azərbaycanlı körpələr öz doğma yurd yerində, isti ocaqlarında erməni vəhşiləri tərəfindən analarının gözləri qarşısında qətlə yetiriliblər. Guya İordaniya Film Festifallarında əyləşənlərin, "erməni humanizminə" göz yaşı tökən yaradıcı müsəlman rejissorların bütün bunlar barədə məlumatları yoxdur? Əlbəttə var. Sadəcə, erməni diasporunun və öz içlərindəki erməni sevdasının diktəsi ilə müsəlman məscidlərini heyvan yaylağına çevirmiş zalım bir ölkəyə əl uzadanların imanı olmur. Dini inancı müsəlman olsa da...

# Görkəmli bəstəkar Firəngiz Əlizadənin səfər təəssüratları

***Müasir dövr Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli simaları deyəndə diqqətimiz Respublikanın Xalq artisti, Dünyanın "Sülh" artisti, AMEA-nın müxbir üzvü, professor, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin yaradıcılığı üzərində bərqərar olur. Bəstəkarın yaradıcılığı dünya musiqi sivilizasiyasının ən parlaq cəhətlərini özündə əks etdirərək yeni ifadə vasitələri ilə zəngin olan üslubla xarakterizə edilir. Odur ki, Firəngiz Əlizadə dünyanın ən məşhur musiqiçiləri tərəfindən sevilərək alqışlanan və daim ehtiyac duyulan bəstəkardır. Dünyaca məşhur musiqi kollektivlərinin sifarişi ilə qələmə aldığı əsərlər və ya digər əsərlərinin Amerika, Fransa, İngiltərə, Almaniya və başqa ölkələrin konsert salonlarında səslənməsi söylənilən fikrin əyani ifadəsidir.***

Firəngiz Əlizadə yalnız bəstəkar kimi deyil, bir musiqişünas-alim, ictimai xadim kimi də həm Respublikamızda, həm də onun hüdudlarından uzaqlarda tanınan, hörmətlə qarşılanan və şöhrət qazanan görkəmli sənətka-



rımızdır. Bu fikri təsdiq edən bir neçə faktlar gətirə bilərik. Elə haqqında bəhs edəcəyimiz bir müsabiqə də məhz bu qəbildəndir. Söhbət 2007-ci ildən Sankt-Peterburq şəhərində keçirilən məşhur bəstəkar Andrey Pavloviç Petrov adına Ümumrusiya bəstəkarlarının müsabiqəsindən gedir. Əvvəla, onu qeyd etməliyik ki, A.P.Petrov 1930-2006-cı illərdə Sankt -Peterburqda yaşayıb-yaradıb. O, müasir dövrün məşhur bəstəkarı olaraq musiqinin müxtəlif janrlarında dəyərli əsərlər yazıb. Buraya simfonik, kamera-instrumental, vokal və səhnə əsərləri daxildir. Bir çox ən məşhur kinofilmlərin də musiqisi A.P.Petrova aiddir. "Mən Moskvada addımlayıram" ("Ə şaqaö po Moskve"), "İşdə məhəbbət macərası" ("Slujebnıy roman") və bu kimi tanınmış filmləri qeyd edə bilərik. Yaradıcılığa çox tez, hətta yeniyetmə çağlarından 15 yaşından başlayan Petrov mahir bir musiqiçi kimi çoxlu sayda müsabiqə və festivallarda çıxışlar edib. Bir sözlə Rusiyanın musiqi həyatında silinməz izlər qoyan bəstəkarın xatirəsinə 2007-ci ildən təsis olunan müsabiqə onlarla musiqiçini öz ətrafına toplayır. Bu müsabiqəyə dünyanın ən məşhur musiqiçiləri münsiflər heyətinin sədri kimi dəvət alıblar. Onlardan Qiya Kançeli, Yuriy Temirkanov, Aleksandr Knayfel, Gennadiy Qladkov, Yevgeniy Doqa, Aleksey Rıbnikov, Aleksandr Raskatov, Dmitriy Yanov-Yanovskiy və başqalarının adlarını çəkə bilərik.

2019-cu ildən isə müsabiqənin münsiflər heyətinin sədri Xalq artisti, professor Firəngiz Əlizadədir. Hər il ənənəvi olaraq sentyabr ayında keçirilən müsabiqə bu il də maraqlı hadisələrlə zəngin olub. Festivaldan xoş təəssüratlarla qayıdan hörmətli bəstəkarımız Firəngiz Əlizadə ilə müsahibədən bəzi məqamlar:

"Müsabiqənin açılışı çox möhtəşəm oldu. Rusiyanın Mədəniyyət Naziri Olqa Lyubimova hamını salamlayaraq SSRİ Xalq artisti A.P.Petrovun öz əsərləri ilə rus xalqının qəlbində mühüm yer tutduğunu, onun musiqisindən bəhrələnən gənclərin bəstəkarlığa qədəm qoyub və bu müsabiqəyə də qatıldıqlarını vurğuladı.

Sentyabrın 18-i keçirilən müsabiqənin mətbuat hissəsində bəstəkarın irsinə dair maraqlı çıxışlar və yüksək səviyyəli müsahibələr aparıldı. Bildiyimiz kimi Petrovun qızı Olqa Petrova da bəstəkardır və vaxtilə o, atası ilə birlikdə bir neçə əsərlər də yazıb. 2007-ci ildən isə "A.P.Petrovun yaradıcılıq irsinin qorunması və inkişafı" Fondunun rəhbəridir. Əməkdar incəsənət xadimi Olqa Petrova A.P.Petrov adına Bəstəkarların müsabiqəsini həmişə yüksək səviyyədə keçdiyini qeyd edərək bu ilki müsabiqənin də iştirakçılarına uğurlar arzulayıb, yenə də yüksək səviyyədə keçəcəyinə əmin olduğunu bildirdi". Ümumiyyətlə, qeyd etməliyik ki, müsabiqənin çox maraqlı şərtləri var. İlk illərdə müsabiqəyə yalnız rusiyadan bəstəkarlar qatılırdılar. Növbəti illərdə isə xarici ölkələrdən də bəstəkarlar müsabiqədə iştirak etmək şansı qazandılar. Belə ki, müsabiqə öz dairəsini bir xeyli genişləndirdi.

Firəngiz Əlizadənin qeyd etdiyinə görə bu il müsabiqəyə 140 bəstəkarın əsəri təqdim olunub. Simfonik, mahnı və estrada əsərlərindən ibarət partituraları, bəzi əsərlərin isə elektron yazısı göndərilib. Əvvəlki müsabiqələrdən fərqli olaraq bu il 95 gənc bəstəkarın əsəri də müsabiqədə yer almışdı. Müsabiqə əsasən 3 nominasiya üzrə keçirilirdi. Sentyabrın 20-də Sankt-Peterburq Akademik Filarmoniyasının simfonik orkestrinin ifasında Fyodor Lednyovun dirijorluğu ilə müsabiqəyə təqdim olunaraq münsiflər heyətinin qərarı ilə xüsusi yerlərə layiq görülən əsərlər səsləndi.




### Belə ki, müsabiqədə təsdiq olunmuş yerlərə layiq görülən bəstəkarlar -

I yer - Sankt-Peterburqdan Artur Vabel ("Neobratimostğ"-"Dönməzlik"), II yer - Nyu-Yorkdan çinli bəstəkar Zi Tao ("Mottetto"), III yer - Rusiya bəstəkarı Artyom Lauxin ("Tuba Mirum") seçildi. Xüsusilə onu qeyd etmək yerinə düşər ki, müsabiqənin diplomu türk bəstəkarı Ufuq Biçaka təqdim olundu.

Sentyabrın 21-də "Ümidlərin sahili" adlı nominasiyada M.İ.Qlinkaadına Filarmoniyanın kiçik zalında N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Konservatoriyasının kamera orkestrinin müşayiəti ilə Rusiyanın Əməkdar artisti, orkestrin bədii rəhbəri və dirijoru Arkadiq Şteynluxtun ifasında qalib olan əsərlər səsləndi.

Görkəmli bəstəkarımız Firəngiz Əlizadənin belə bir Beynəlxalq müsabiqədə münsiflər heyətinin sədri təyin olunması, Azərbaycan bəstəkarlıq məktəbinə verilən yüksək qiymət və Azərbaycan bəstəkarına böyük etimaddır. Odur ki, müsabiqə çərçivəsində Firəngiz xanımın yaradıcılığına da xüsusi diqqət ayrılıb. Belə ki, sentyabrın 19-da N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Dövlət Konservatoriyasında Firəngiz Əlizadə ilə görüş keçirilmiş, Arkadiy Şteynluxtun dirijorluğu ilə bəstəkarın "Metamorphosis" ("Metamorfozlar" Şüştər) əsəri yüksək səviyyədə ifa edilib. Bu əsər Rusiyada ilk dəfə səsləndiyi üçün premyera sürəkli alqışlarla qarşılanıb.

Sevindirici haldır ki, Firəngiz Əlizadənin Sankt-Peterburq şəhərində olduğu zaman ölkədə Qadınların Forumu keçirilib. Firəngiz Əlizadə də bu beynəlxalq tədbirə dəvət olunub. Ümumiyyətlə, görkəmli bəstəkarımızın nüfuzu daim dünya musiqiçiləri ilə yanaşı Rusiyanın mədəniyyətinin də diqqət mərkəzindədir. Rusiyada keçirilən ilk beynəlxalq səviyyəli I Mədəniyyət Forumuna Firəngiz Əlizadənin də dəvət olunması buna əyani misaldır, orada bəstəkarın violonçel üçün Konserti professor Yulius Bergerin (Almaniya)ifasında təqdim olunmuşdur.

Firəngiz Əlizadə A.P.Petrov adına XVIII Bəstəkarların müsabiqəsinin təəssüratlarından xoş sözlər danışaraq, həmən ərəfədə Sankt-Peterburqda baletmeyster Boris Eyfmanın quruluşunda F.Dostoyevskinin "Cinayət və cəza" romanı əsasında əsərin premyerasına dəvət olunduğunu da xüsusi vurğuladı.

Öz ölkəsinin mədəni və ictimai həyatına dəyərli töhfələr verən Firəngiz Əlizadənin zəngin yaradıcılığı, yüksək intellekti və geniş fəaliyyəti dünya musiqiçiləri üçün də əsl sənət nümunəsi və qərəkli bir mənbədir. Odur ki, 5-ci dəfə sədri olduğu müsabiqədə qaliblər məhz ondan aldıqları mükafatı öz yaradıcılıqlarının uğuru hesab etməklə. daim ürəklərində Firəngiz Əlizadə ilə bahəm Azərbaycanımıza da təşəkkür ifadə edəcəklər. Elə biz də Rusiyanın belə çətin və təlatümlü dövründə sənətə və sənətkara verdikləri belə yüksək dəyərə görə A.P.Petrov adına müsabiqənin təşkilatçılarına və iştirakçılarına təşəkkür edirik. Əziz Firəngiz Əlizadəyə də minnətdarıq ki, öz yaradıcılığı ilə bərabər Azərbaycan bəstəkarlıq məktəbinə belə uğurlar gətirir. Nəzərə alsaq ki, bu müvəffəqiyyət Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı günlərinə təsadüf edib, deməli bu da Üzeyir bəyə ehtiramın daha bir ifadəsidir. Bəli, hər bir musiqiçinin uğuru Üzeyir bəyin ruhuna hörmət, irsinə sədaqətdir. Hörmətli və sədaqətli Firəngiz Əlizadə Sizə daim uğurlar arzusu ilə......




***SƏADƏT TƏHMİRAZQIZI***
***Əməkdar mədəniyyət işçisi,***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru***

# Azərbaycanın iqtisadi inkişaf modeli

## Prezident İlham Əliyev: "Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik"

Azərbaycan Prezidenti İlham Əliyevin 21 illik prezidentliyi dövründə bütün sferalarda çevik islahatlar aparılıb, dövlət proqramları qəbul olunub. Düşünülmüş iqtisadi siyasət nəticəsində beynəlxalq qurumlarla səmərəli əlaqələr qurulub, vacib olan neft strategiyası davam etdirilib. Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edib. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb.

Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edib.

Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə ümumi daxili məhsul 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, ÜDM-in real həcmi 4 dəfə artıb. Statistik rəqəmlərə əsasən, deyə bilərik ki, adambaşına ÜDM 769 ABŞ dollarından 7.798 ABŞ dollarına yüksəlib. Qeyri-neft-qaz ÜDM-i 4,1 milyard ABŞ dollarından 41,1 milyard ABŞ dollarına çatıb. Ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dollarından 52,7 milyard ABŞ dollarına yüksəlib. İxracın həcmi 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatıb.



### ”ÖLKƏ İQTİSADİYYATININ ŞAXƏLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ ATILMIŞ ADDIMLAR VƏ DÜŞÜNÜLMÜŞ İSLAHATLAR SİYASƏTİ ÖZ BƏHRƏSİNİ VERMƏKDƏDİR”

Təkcə bu ilin göstəriciləri də iqtisadi inkişafın uğurlarını şərtləndirən amillərdir. Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı zamanı səsləndirdiyi fikirlər bu il iqtisadiyyatımız üçün uğurlu olduğunu ifadə edir. ”İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir”, - deyən dövlətimizin başçısı bildirib ki, iqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir: ”Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir”.

Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəklikləridir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

”Son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq bizim ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi və biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik”, - deyən Prezident diqqətə çatdırıb ki, ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin: ”Son aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq. Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin ediləlidir”. Hazırda neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işlədiyimizi bildirən Prezident o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımızın olduğunu diqqətə çatdırıb: ”Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır.”

Transmilli enerji və nəqliyyat-kommunikasiya dəhlizləri sahəsində uğurlu siyasət Azərbaycanın sosial-iqtisadi inkişaf göstəricilərini yüksəldib. Ölkəmiz Avropanın enerji təminatında strateji və etibarlı tərəfdaşa çevrilib. 2006-cı ildə istismara verilən Bakı-Tbilisi-Ceyhan boru kəməri, 2018-ci ildə rəsmi açılışı olan Cənub Qaz Dəhlizi bu baxımdan xüsusi qeyd edilməlidir. Enerji əməkdaşlığının yeni mərhələsi üçün 2022-ci ildə Avropa və digər tərəfdaş ölkələrlə energetika sahəsində strateji əməkdaşlığa dair Memorandum və Saziş imzalanıb. Ölkəmiz qlobal enerji keçidi çağırışlarına uyğun olaraq, xarici investorlarla əməkdaşlıq çərçivəsində bərpa olunan enerji mənbələrinin səmərəli istehsalını təşkil edir.

Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan yalnız tranzit ölkə kimi yox, eyni zamanda bir sıra nəqliyyat layihələrinin təşəbbüskarı kimi də çıxış edir. Ölkəmizin təşəbbüsü və maliyyə dəstəyi ilə həyata keçirilən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi 2017-ci ildə istismara verilib.

### ”BİZ HƏSSAS TƏBƏQƏ SAYILAN VƏTƏNDAŞLARIMIZIN DA RİFAH HALININ YAXŞILAŞDIRILMASI ÜÇÜN ƏLİMİZDƏN GƏLƏNİ EDİRİK”

Ölkəmizdə 2003-cü ildən bu günə qədər bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb. Statistik məlumatlara nəzər salsaq görərik ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərclərində 20 dəfədən çox artım baş verib. Minimum əməkhaqqı 38 dəfə artırılaraq 345 manata, orta aylıq əməkhaqqı 12 dəfə artaraq 925,3 manata çatıb. Sosial müdafiə sisteminin mühüm komponenti olan pensiya təminatı yoxsulluğun azaldılmasında əhəmiyyətli rola malikdir. 2006-cı ilin əvvəlindən Azərbaycanda qabaqcıl dünya təcrübəsinə uyğun müasir sığorta-pensiya modelinə keçidin təmin edilməsi pensiya təminatında müsbət nəticələrin əldə edilməsi ilə nəticələnib. Rəqəmlərin dili ilə desək ötən 21 ildə minimum pensiya 14 dəfə artaraq 280 manata, orta aylıq pensiya 18 dəfə artaraq 435 manata, yaşa görə orta aylıq pensiya 19 dəfə artaraq 466 manata, əlilliyə görə orta aylıq pensiya 14 dəfə artaraq 366 manata, ailə başçısını itirməyə görə orta aylıq pensiya isə 19 dəfə artaraq 408 manata çatıb. ”Bizim əsas hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı iqtisadi modeli təkmilləşdirməkdir. İnflyasiya ilin əvvəlindən cəmi 1 faizdən bir qədər çox olmuşdur. Bu da çox müsbət göstəricidir, - deyə Prezident bildirib: ”Mən artıq bəyan etdim ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq, baxmayaraq ki, inflyasiya çox aşağı səviyyədədir, baxmayaraq ki, ölkə qarşısında duran vəzifələr böyük maliyyə vəsaiti tələb edir, ilk növbədə, hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı. Bütün bunlara baxmayaraq, biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik”. Azərbaycan Milli Məclisində Prezident çıxışda son beş il ərzində Azərbaycanda nə qədər böyük sosial islahatlar paketi reallaşdırıldığını diqqətə çatdırmışdır. 2018-ci ildən bu günə qədər dörd sosial islahatlar paketi həyata keçirilib. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. ”Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artmışdır. Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır”, - deyə dövlətimizin başçısı vurğulayıb: ”Yəni, bütün bu məsələlər tam əminliklə deməyə əsas yaradır ki, iqtisadi inkişaf templəri həm bu ilin sonuna qədər saxlanılacaq, həm də, - nəzərə alsaq ki, indi gələn ilin büdcəsi müzakirə olunur və büdcənin parametrləri də daha genişmiqyaslı olacaq, - gələn il də iqtisadi inkişaf templəri lazımi səviyyədə olacaq.”

### ”BİZ ÖZ RESURSLARIMIZA ARXALANARAQ GÜCLÜ İQTİSADİYYAT QURMUŞUQ, MÜSTƏQİL İQTİSADİYYAT QURMUŞUQ, HEÇ KİMDƏN ASILI DEYİLİK”

Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Təbii ki, bütün bunlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə güclənməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb. Ölkə başçısının siyasi iradəsinə uyğun olaraq ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz insan amili, vətəndaşların mənafeyi dayanır ki, bu istiqamətdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan sərəncamlar insanların sosial həyatının yaxşılaşdırılmasına və vətəndaş məmnunluğunun artırılmasına yönəldilib. Minimum əməkhaqqının, pensiyaların, tələbələrin təqaüdlərinin artırılması və digər ödənişlər dövlət başçısı tərəfindən təqdim edilən böyük sosial paketin tərkib hissəsidir. Həyata keçirilən islahatlar sosialyönümlülük və humanizm prinsiplərinə əsaslanır. Yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması və s. Azərbaycanın dinamik inkişaf edən bir ölkə olduğuna əsaslanır. Sosial rifah və ədalət prinsipi dövlət siyasətinin strateji xəttini təşkil edir.

Tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin bildirdiyi kimi, ”Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycanın tolerantlıq modeli: etimad və hörmət şəraitində vahid ailə

"Şərqlə Qərbin qovuşağında körpü rolunu oynayan Azərbaycan uzun əsrlərdən bəri xalqlar arasında dostluq, qardaşlıq münasibətlərinin mövcud olduğu və etnik-mədəni rəngarəngliyin, yüksək multikultural dəyərlərin qorunub saxlandığı nadir məkanlardandır. Burada tarix boyu ən müxtəlif mədəniyyətlərin və etiqadların nümayəndələri ayrı-seçkiliyə məruz qalmadan həmişə sülh, mehriban qonşuluq, qarşılıqlı etimad və hörmət şəraitində bir ailə kimi yaşamışlar". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev yəhudi xalqının milli yeni il bayramı - Roş ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasına ünvanladığı təbrikində bildirib. Bu gün də nümunəvi tolerantlıq mühitinin hökm sürdüyü ölkəmizdə etnik və dini azlıqların, o cümlədən yəhudi icmasının öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanaraq adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaları üçün geniş imkanlar mövcud olduğunu bildirən dövlətimizin başçısı xüsusi olaraq vurğulayıb ki, cəmiyyətimizin ayrılmaz hissəsi və bərabərhüquqlu üzvü olaraq yəhudi əsilli vətəndaşlarımız Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması işinə töhfələr verir, hazırda böyük tərəqqi və sürətli inkişaf mərhələsini yaşayan respublikamızın ictimai-siyasi həyatında yaxından iştirak edirlər.

Bu gün Azərbaycanda bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst, heç bir maneə olmadan fəaliyyət göstərir və onlara dövlət tərəfindən qanun çərçivəsində lazımi dəstək verilir. Azərbaycanda müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisinə və bərpasına fərqli dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstək verməsi, ianələr toplaması tarixi keçmişimizdən qalan mütərəqqi ənənədir. Hesablamalara görə, Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnalar və digər dinlərin mənsubları təşkil edirlər. Xristianlığın, demək olar ki, bütün cərəyanları ölkəmizdə təmsil olunmuşdur. Belə ki, Azərbaycanda pravoslav, katolik, lüteran və protestant təriqətlərin, eləcə də tarixi Alban kilsəsinin mənsubları olan xristianlar yaşayır. Ölkənin xristian əhalisi əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, eləcə də Qax (gürcü pravoslavlar), İsmayıllı, Gədəbəy, Qobustan (molokanlar), Qəbələ və Oğuz (Nic qəsəbəsində və Oğuz şəhərində albanudilər) rayonlarının əhalisidir. Katoliklər daha çox Bakı şəhərində yaşayırlar.

## QIRMIZI QƏSƏBƏ DÜNYADA İSRAİLDƏN SONRA YƏHUDİLƏRİN YIĞCAM YAŞADIĞI NADİR MƏKANDIR

Ölkəmizdə yaşayan müxtəlif xalqlar öz dini-milli bayramlarını qeyd edirlər. Bildiyimiz kimi, hər il Qubadakı Qırmızı qəsəbədə yaşayan dağ yəhudiləri Roş-xa-Şana bayramını əmin-aman şəraitdə qeyd edirlər. Yəhudi təqvimi ilə Yeni ilin başlanğıcı sayılan bu bayram günündə qəsəbə sakinləri sinaqoqa gedərək dualar oxuyur, ehtiyacı olanlara əl tutur, bayram süfrəsi arxasında toplaşaraq Tanrıdan günahlarının bağışlanmasını diləyirlər. Onuncu gündə isə bütün sutkanı ac qalmaqla oruc tutur və müqəddəs "Yom Kipur" gününü qeyd edirlər. Roş-xa-Şana bayramı dünyanın müxtəlif məkanlarında yaşayan bütün yəhudilər təntənəli şəkildə keçirir. Qırmızı qəsəbə dünyada İsraildən sonra yəhudilərin yığcam yaşadığı nadir məkandır. "Qafqazın Yerusəlimi" adlandırılan qəsəbədə məskunlaşan yəhudilər uzun illərdir öz adət-ənənələrini yaşadırlar. Bu gün ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində yaşaması fikirlərimizi əsaslandırır. Dövlət başçısı İlham Əliyevin bəyan etdiyi kimi, multikulturalizm ənənələri və tolerantlıq Azərbaycan xalqının həyat tərzi, mənəvi-əxlaqi dəyəri, Azərbaycan Respublikasının siyasətidir.



Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlət-din münasibətlərində yeni bir mərhələ başladı. Dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. Uzun illər ibadət ocaqlarının, dini icmaların fəaliyyətinə, dini ayinlərin icrasına, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu. Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpası və yenidən qurulmasına xüsusi önəm verib. Belə ki, Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə imzaladığı Sərəncama əsasən, dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi yenidən tikilərək 1998-ci ildə istifadəyə verildi. Beləliklə, davamlı olaraq bu istiqamətdə tədbirlər reallaşdı.

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığını təmin edən, dövlət-din münasibətlərini tənzimləyən müddəalar daxil edildi. Dövlət quruculuğunun dünyəvi mahiyyət daşıması, dinin dövlətdən ayrı olması, bütün dini etiqadların qanun qarşısında bərabər sayılması, dövlət təhsil sisteminin dünyəvi xarakter daşıması, insan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd dinlərin yayılmasının və təbliğinin qadağan olması barədə müddəalar həmin sənəddə əksini tapdı.

## DÜNYA BİZİM TƏCRÜBƏMİZİ ÖYRƏNİR

Qərb fəlsəfi fikrində özünə yer almış multikulturalizm mədəniyyətlərin müxtəlifliyi və çoxçalarlılığını ifadə edir. Azərbaycan qədim zamanlardan müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuş, ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı mədəni məkana çevrilmişdir. Tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənən Azərbaycanda bu müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Azərbaycanda multikulturalizm siyasəti dövlət siyasəti kimi qəbul edilərək Qərb dövlətləri ilə müqayisədə daha səmərəli şəkildə həyata keçirilir. Azərbaycan sivilizasiyalar arasında körpü rolunu oynayan bir dövlətdir və dünya bizim təcrübəmizi öyrənir.

## AZƏRBAYCANIN TARİXƏN SAHİB OLDUĞU TOLERANTLIQ VƏ MULTİKULTURALİZM ƏNƏNƏLƏRİ

Multikulturalizmin yaşam tərzi kimi beynəlxalq əhəmiyyəti müasir dünyamızda son dərəcə həyati əhəmiyyət kəsb edir. Bu gün artıq ölkələr, xalqlar dərk edirlər ki, kütləvi qırğın silahlarının durmadan artdığı bir zamanda əməkdaşlıq, mədəniyyətlərarası dialoq vacib məsələlər sırasındadır. Ölkəmizin bu sahədə həyata keçirdiyi siyasət və əldə etdiyi təcrübə başqa dövlətlər üçün də nümunə göstərilir. Azərbaycan tarixən müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, dostluq şəraitində yaşadığı məkan olub. Bu gün Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı, qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. Ümummilli Liderin Azərbaycanda milli azlıqlarla bağlı siyasəti beynəlxalq qurumlar tərəfindən də hər zaman müsbət qarşılanıb.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dini məbədlərin bərpası və təmiri, eləcə də yenidən tikilməsi Prezident İlham Əliyev tərəfindən daha genişmiqyaslı şəkildə davam etdirildi. Əlbəttə ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə verdiyi töhfələr də əhəmiyyət kəsb edir. Təzəpir məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Gəncə İmamzadə kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilib.

Xüsusi olaraq vurğulayaq ki, paytaxtımızda Heydər Məscidi kimi Cənubi Qafqazın ən böyük və müasir məscidi tikilib. Heydər Əliyev Fondu tərəfindən "Tolerantlığın ünvanı - Azərbaycan layihəsi çərçivəsində ölkənin müxtəlif yerlərində çoxsaylı məscid və ibadət evləri bərpa edilib. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Azərbaycan əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil etməsinə baxmayaraq ölkə Konstitusiyasında bütün dini etiqad və təlimlərin qanun qarşısında bərabər olduğu təsbit olunmuşdur. Qanunvericiliyə əsasən ölkədə hər hansı bir dinin digər dindən üstün olması barədə təbliğatın aparılması qadağandır.

Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın bəyan etdiyi dəyərlər göz qabağındadır. Milli mənəvi dəyərlər, azərbaycançılıq, milli, dini dözümlülük, tolerantlıq sosial-iqtisadi inkişaf və dövlətin öz siyasi xəttinə güvənməsi davamlı inkişafın və uğurların əsas amilləridir.

## 30 SAYDA MİLLƏT VƏ ETNİK QRUPLAR

Əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, protestantlar, yəhudilər daxil olmaqla, müxtəlif etnik və dini qruplar əsrlərdir sülh, qardaşlıq, qarşılıqlı hörmət şəraitində yaşayır. Burada etnik və dini qruplar arasında hər zaman güclü əlaqələr olub. Bu ölkədə heç zaman dini və ya irqi ayrı-seçkilik olmayıb. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar dinindən, millətindən asılı olmayaraq, Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşama ənənələrini daha da möhkəmləndirib. Ölkə ərazisində yaşayan milli azlıqlar qanunla nəzərdə tutulan hər cür təşkilat yarada bilərlər. Belə təşkilatların hüquqi vəziyyətini Konstitusiya və ya qanunlar tənzimləyir. Azərbaycanın müxtəlif guşələrində yığcam halda yaşayan 30 sayda millət və etnik qruplardan ibarətdir. Sayı, dil və dinlərinin müxtəlifliyinə baxmayaraq, onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Milli azlıqları təmsil edən mədəni mərkəzlər və birliklərlə bağlı mühüm işlər görülür. Qusar rayonundakı Ləzgi Dövlət Dram Teatrının və Qax rayonunda yaradılmış Dövlət Kukla Teatrının maddi-texniki bazaları dövlətimiz tərəfindən möhkəmləndirilib. Qax rayonunun Əlibəyli kənd Mədəniyyət evində 1981-ci ildə yaradılmış və 1985-ci ildə "xalq teatrı" adını almış gürcü dram dərnəyinə dövlət statusu verilmişdir. S. Vurğun adına Rus Dram Teatrı ilə yanaşı, Azərbaycan Dövlət Musiqili Komediya, Azərbaycan Dövlət Gənc Tamaşaçılar və Azərbaycan Dövlət Kukla Teatrlarındakı rus bölmələri fəaliyyət göstərirlər. Astara rayon Mədəniyyət evinin "Sevinc" mahnı və rəqs ansambllarının talış milli azlığının adət-ənənələrinin, milli rəqs və mahnılarının təbliği sahəsində rolu vardır. Astarada "Məhsul", "Əkinçi", "Şum" bayramları keçirilir.

Dövlətin din sahəsində apardığı siyasət cəmiyyətdə dinin müxtəlif formalarda mövcudluğunu nəzərə alaraq, fikir, söz və vicdan azadlığı üzərində qurulmuşdur. Din sahəsindəki siyasət beynəlxalq hüququn prinsiplərinə və normalarına, dövlətimizin qoşulduğu beynəlxalq müqavilələrə, ölkə Konstitusiyasına və digər normativ hüquqi aktlara əsaslanır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Ermənistanı silahlandıran “sülh göyərçinləri”

## Məğlub ölkənin sürətli şəkildə hərbləşdirilməsi kampaniyası yeni mərhələyə daxil olub

Qərbin xeyir-duası ilə məğlub Ermənistana hərtərəfli hərbi, maddi və mənəvi dəstək verilməsi ilə bağlı sensasion xəbərlər yayılıb. Ciddi narahatlıq doğuran bu xəbərlər regionda sülh quruculuğu səylərini əngəlləyir. Eyni zamanda Azərbaycanla Ermənistan arasında normallaşmaya, Cənubi Qafqazda sülhə, təhlükəsizliyə qarşıdır. Qərb dünyası və onun əlaltıları otuz illik işğal və işğaldan sonrakı müddətdə qərəzli və ikili standartlardan irəli gələn formada birtərəfli qaydada Ermənistana dəstək nümayiş etdirir. Bu sırada bir vaxtlar Qarabağ münaqişəsinin nizamlanması ilə məşğul olan ATƏT-in keçmiş Minsk qrupunun həmsədrləri olan dövlətlər xüsusi ilə seçilirlər. Söhbət ABŞ və Fransadan gedir. Hər iki dövlət 2020-ci il Vətən müharibəsindən sonrakı dövrdə İrəvana dəstək nümayiş etdirib. Son vaxtlar isə bu dəstək hərbi fazaya yüksəlib.

Caliber.az-ın məlumatına görə, son bir neçə həftə ərzində Ermənistan üçün nəzərdə tutulan silahlar ünvanına çatıb. Məlumata görə, Fransanın 155 mm-lik SEZAR özüyeriyən artilleriya qurğuları və onların komponentləri, həmçinin tank əleyhinə raket kompleksləri və hava-hava raketləri Ermənistandadır. SEZAR özüyeriyən artilleriya qurğuları ilə bağlı əldə edilən məlumata görə, bu silahlar Fransanın Orli hava limanından İranın Mehrabad hava limanına göndərilir. Daha sonra İranın ”Merac” aviaşirkəti silahları birbaşa son təyinat yerinə - Ermənistana çatdırır. 12 ədəd SEZAR özüyeriyən artilleriya sistemi İrəvana çatdırılıb. Təchizatın miqyasını daha yaxşı anlamaq üçün qeyd edək ki, Rusiya-Ukrayna müharibəsinin əvvəlində Fransa ordusunun balansında cəmi 76 SEZAR sistemi olub. Bundan əlavə, Ermənistan ordusunun sərəncamına onlarla R511 və R530 hava-hava raketləri, ”ERYX” tank əleyhinə idarəolunan raketləri, alman istehsalı DM32 qumbaraatanları və ”Panzerfaust 3” tank əleyhinə raket sistemləri verilib. Bundan başqa, Ermənistan silahlı qüvvələri Fransa istehsalı olan 500-ə yaxın birdəfəlik ”Apilas” reaktiv yaylım atəşi sistemləri və Amerikanın 50 ədəd BGM71-TOW tank əleyhinə idarə olunan raket kompleksləri ilə təmin edilib.









Ağ Ev bir tərəfdən bölgədə Azərbaycanla Ermənistan arasında sülh prosesini dəstəklədiyini bəyan etsə də, digər tərəfdən İrəvanla hərbi əməkdaşlığa, hətta təlimlərə start verir. Hər kəsə də bəllidir ki, İrəvanın hələ uzun müddət nəinki qalib gəlmək, hətta müharibə aparmağa nə resursu, nə də imkanı var. Görünür, ABŞ hər vəchlə Rusiyanı bölgədən sıxışdırıb çıxarmağa çalışır və bu yolda ermənilərdən istifadə olunur. Son zamanlar Rusiya ilə Ermənistan arasında gərginlik var və bu, artan xətlə gedir. Paşinyan hakimiyyəti Qərbə, ABŞ-yə inteqrasiya etmək xətti tutub. Digər yandan 102-ci bazanın çıxarılması gündəmə gəlib. Faktiki olaraq, Ermənistan ərazisində Fransa və ABŞ-ın nümayəndələri var. ABŞ hərbçilərinin Ermənistanda təlimlər keçməyi, Ermənistan ordusuna təlimatçılar göndərilməsi Rusiya-Ermənistan münasibətlərini daha da gərginləşdirib. Maraqlıdır ki, Ermənistan özü susduğu halda, ABŞ və Fransa ermənilərin Qarabağa qayıtması məsələsini davamlı qaldırırlar. Bununla yanaşı, ABŞ Ermənistanda yeni nüvə reaktoru yaradır və onsuz da bütün region üçün böyük təhlükə kəsb edən ”Metsamor” Atom Elektrik Stansiyasını daha da gücləndirir. Bu halda nə Ermənistanın seysmik zonada yerləşməsi, nə nüvə qaçaqmalçılığı kimi problemlər nəzərə alınmır. Şübhəsiz ki, sülh prosesinin davam etdiyi bir məqamda hərbi kömək edilməsi Ermənistanda revanşist hissləri oyadır. Qərb və ABŞ bu addımı atmaqla Rusiya-Ukrayna müharibəsi fonunda bir oxla bir neçə hədəfi vurmağa cəhd göstərir. O ki qaldı regiondan min km-lərlə kənarda olan Hindistana - ABŞ-ın və Fransanın diktəsi ilə oturub duran bu ölkə 44 günlük müharibədən sonra Ermənistanı silahlandıran ölkələrdəndir. 2024-2025-ci maliyyə ilində Ermənistan Hindistandan 600 milyon dollar məbləğində silah alıb. Məlumata görə, onlar Ermənistana ”Pinaka” raket sistemləri, pilotsuz uçuş aparatları əleyhinə sistemlər, tank əleyhinə sistemlər, başqa silah və hərbi texnika tədarük edib. Dörd Pinaka batareyasının və onlar üçün raketlərin tədarükünə dair müqavilə İrəvana 250 milyon dollara başa gəlib.



Beləliklə, qlobal və təhlükəli bir oyunun oyuncağına çevrilən Ermənistan rəhbərliyi isə beynəlxalq vəziyyəti doğru-düzgün dərk etmək iqtidarında deyil və ölkəsini açıq-aşkar fəlakətə sürükləyir. Yeni ”sahib” axtarışında olan İrəvan Rusiyadan qurtulub, Fransanın və ya ABŞ-ın qucağına atılmaqla ”ağ günə” çıxacağını, bütün problemlərini həll edəcəyini güman edir. Lakin Qərbi şübhəsiz ki, Ermənistan deyil, onun geosiyasi məkanı və geosiyasi məqsədləri maraqlandırır. Amma Ermənistan hökuməti və erməni xalqı arasında bütün bunlar yanlış olaraq işğalçı ölkəyə və onun siyasi ambisiyalarına dəstək kimi qəbul edilir. Şübhəsiz ki, Azərbaycan da baş verənləri diqqətlə izləyir, Baş nazir Nikol Paşinyan Ermənistanın ”qəribə” davranışlarını, ikibaşlı oyunlarını, sülh müqaviləsi layihəsindəki müddəalarla bağlı haqlı tələblərini qulaqardına vurmasını, prosesi uzatmaqla güclənmək üçün vaxt qazanmaq niyyətini tam olaraq dərk edir. Bununla bağlı rəsmi İrəvana dəfələrlə xəbərdarlıq da edilib. Yəni, Azərbaycan onun suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq siyasi və iqtisadi maraqlarına kiçik bir təhdid hiss edərsə, türk qardaşlarımız demiş, ”gərəyini yapacaqdır”.

”Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə görə birbaşa onlar cavabdehlik daşıyacaqlar”. Bu sözləri Prezident İlham Əliyev VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışı zamanı bildirmişdi. Dövlət başçısı deyib: ”Onlara Amerikadan indi 250 milyon dollar pul verilir. O puldan onlar istifadə edəcəklər öz daxili məqsədlərinə, qənaət olunan pula isə silah alacaqlar bizi öldürməyə. Bu məsuliyyəti kim daşıyır və kim daşıyacaq, o pulu onlara verən. O cümlədən dırnaqarası Avropa Sülh Fondu. Görün, bu riyakarlığın səviyyəsinə baxın. Silah üçün nəzərdə tutulan fond, ona Sülh Fondu deyirlər, ondan istifadə edir Ermənistan, Fransadan pulsuz silah alır”. Prezident həmçinin qeyd edib ki, Azərbaycanın şərtləri yerində qalır: ”Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə görə birbaşa onlar cavabdehlik daşıyacaqlar. Təbii olaraq bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Onların Konstitusiyasına dəyişiklik edilməlidir, Minsk qrupu da ləğv olunmalıdır”.

Azərbaycan qalib tərəf olsa da, dəfələrlə humanistlik edərək Ermənistana sülh əlini uzadıb. Üstəgəl, ikitərəfli təmaslar nəticəsində normallaşma istiqamətində müəyyən irəliləyişin əsas səbəbləri məhz rəsmi Bakının qətiyyəti, prinsipiallığı və diplomatik məharətidir. Ermənistan hakimiyyəti bunu başa düşür. Lakin başa düşdüyü halda sülhdən yayınır. Bunu göstərən bir neçə amil var: Azərbaycanın göndərdiyi təkliflər paketinə hər dəfə dəyişiklik edərək vaxt qazanmaq istəyi; Prinsipial məsələlərlə bağlı Bakı ilə razılığa gəlməməsi; Azərbaycanın əsas tələbinə müvafiq olaraq hələ də konstitusiya dəyişikliyini gündəmə gətirməməsi; Artan hərbi təxribatlar. Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan qərarını verib: sülh istəmir.

***Sevinc Azadi***

# Beynəlxalq Qeyri-Zorakılıq Günündən dünyaya mesaj: "Zorakılıq insani davranış deyil"

***Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 2007-ci ildə qərara aldığı və rəsmiləşdirdiyi Beynəlxalq Qeyri-Zorakılıq Gününün tarixi Hindistan müstəqillik hərəkatının lideri və qeyri-zorakılıq fəlsəfəsinin banisi Mahatma Qandinin doğum günü ilə əlaqəlidir. BMT-nin 140 üzvünün imzaladığı Qətnamə Hindistanın o vaxtkı xarici işlər naziri Anand Şarma tərəfindən Baş Assambleyaya çıxarılıb. Zorakılığa "yox" deyən Beynəlxalq Qeyri-Zorakılıq Günü sülh və tolerantlıq tərənnüm edir.***




Azərbaycan qanunlarına görə zorakılıq yolverilməzdir və onu törədənlər qanun qarşısında cavab verməlidirlər. 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Bu qanun məişət zorakılığının qurbanı olan şəxslərin sosial və hüquqi müdafiəsi, eləcə də məişət zorakılığının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsini nəzərdə tutur. 2012-ci ildə isə "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"nın təsdiq edilməsi haqqında qanun qəbul edilib. Bu qanun məişət zorakılığına məruz qalmış şəxslərə cinayət olmayan əməllərdən belə qorunmağa imkan verir. Cinayət tərkibinin əlamətləri olmayan şikayətlərə pisixi təsir göstərmə, iqtisadi asılılıqda saxlama, təhqir, təhdid, ictimai təcrid etmə və s. mənəvi zorakılıq halları daxildir.





Ailədə zorakılıq bütün cəmiyyətlərin ortaq problemdir. Bu sahədə aparılan araşdırmalar dünyada hər dörd qadından birinin və hər altı kişidən birinin ailədə zorakılığa məruz qaldıqlarını göstərib. Zorakılıq özünü həm fiziki, həm mənəvi, həm də iqtisadi tərəfdən göstərir. Ailədaxili zorakılığa məruz qalanlar həyat yoldaşı (qadın və ya kişi) da olur, uşaqlar da, ailə böyükləri (nənə və ya baba) də, xüsusi qayğıya ehtiyacı olanlar (fiziki qüsurlu insanlar) da. Yəni, zorakılıq törədən qarşıdakının yaşına, statusuna baxmır.

Kişilərin zorakılıq gördüyü cəmiyyətlərdə isə çox vaxt fiziki qüsuru olan kişilər və qocalar bundan əziyyət çəkir. Bu o demək deyil ki, onlara fiziki güc tətbiq edilir, yox, sadəcə sözlə də zorakılıq olur, bu iş qabiliyyətini itirmiş və ya yaşlanmış kişilərin ən çox raslaşdığı vəziyyətdir. Nədənsə, zorakılıqdan söz düşəndə hamının gözünün özünə əri tərəfindən döyülmüş, üzgözü göyərmiş, paltarları cırılmış qadın surəti gəlir. Lakin zorakılıq tək ailədə deyil, cəmiyyətin bütün sferalarında rastlana biləcək vəziyyətdir. Bizim ölkəmizdə də zaman-zaman mətbuata, hüquq-mühavizə orqanlarına məlum olan zorakılıq hadisələri olur, amma etiraf etmək lazımdır ki, ölkəmizdə hər 100 zorakılıq halından yalnız bir neçəsi aşkara çıxır. Kimin gücü kimə yetirsə, zorakılıq göstərir. İnsanlar hər fürsətdə kinini, aqressiyasını boşaltmağa yer axtarır.





Psixoloq Məlahət Həsənova deyir ki, ailədaxili zorakılığın səbəbləri ailə üzvləri arasında anlaşmazlıq, ailə üzvlərinin məsuliyyətsizliyi, fiziki və ruhi problemlər, şəxsiyyət pozğunluqları, maddi problemlər, aldatma-xəyanət etmə, spirt və narkotik asılılıq, depressiya və fərqli namus anlayışlarıdır. Sosioloqlar isə hesab edir ki, ailədə zorakılığın artmasının səbəblərindən biri də savadsızlıqdır. Düzdür, bizdə savadsız qadınlar azdır, ali məktəb oxumayanların heç olmasa orta təhsili, kifayət qədər biliyi var. Təcrübədən keçmiş faktdır ki, dünyadan bir az xəbəri olan, haqqını-hüququnu bilən qadınlar özlərini əzdirmirlər. Heç olmasa, çətin durumda hara müraciət etmək lazım olduğunu bilirlər. Və ya əksinə, ailədə zorakılıq görən kişilər də var, kimisi valideynindən, kimisi də həyat yoldaşından. Zorakılıq tək fiziki təzyiq demək deyil, mənəvi zorakılıq da var və bu fiziki zorakılıqdan daha ağır nəticələr verir.

Psixoloqun sözlərinə görə birinci səbəb stress, əsəb yaradan işlərdən, genefondu dağıdan transgen qidalardan, eləcə də hər saniyə daha da korlanan ekologiyadan qaynaqlanır: "İnsanlar nə qədər ki, süni qida, genetik modifikasiya olunmuş məhsullar yeyəcəklər, ağır və stressli iş rejimi ilə çalışacaqlar elə belə də davam edəcək. Nəticə isə özünü ağır formada göstərir. İşdə, küçədə əsəbləri tarıma çəkilən kişi və ya qadın bütün hirsini evdəkilərin üstünə tökür, etiraz edən, səsini çıxaran olanda da zorakılıq tətbiq edir. İkinci səbəb qeyri-düzgün yaşam, uyğunlaşmayan baxışlar, uyuşmazlıqlardır. Əgər kişi evləndiyi qadını sadəcə görüntü olaraq bəyənirsə bu sonralar böyük problemlərə səbəb olur. Uyğun gəlməyən xasiyyətlər ailəiçi münaqişələrin təməlində durur. Üçüncü səbəb ictimai təsirlərdir.

Ailədaxili zorakılıq bir çox formada təzahür edə bilər, yumruq atma, təpikləmə, söyüş, hər hansı soyuq alətlə vurma, odlu silahlarla qorxutma və ya yaralama, zorla evləndirilmə, cinsi əlaqəyə məcbur etmə, evdə dustaq etmə və s. Bunlardan əlavə, ailə üzvlərinə qarşı səs ucaltmaq, başqalarının yanında hörmətdən salmaq, qürurunu qırmaq da zorakılıq sayılır. İqtisadi imkanların məhdudlaşdırılması, yəni maddi sıxıntıya salmaq da ailədaxili zorakılığın bir növü hesab edilir.

Ailədaxili zorakılığın ən çox zərər çəkmiş hədəfi qadınlardır, onlar döyülürlər, söyülürlər, təhqir və təcavüz edilirlər, yaralanırlar və hətta öldürülürlər də. Qadının ailədəki zorakılığı dözməsinin bir çox səbəbi var, özünü gücsüz hesab edir, maddi cəhətdən asılıdır, cəmiyyətin qınağından qorxur. Bizim cəmiyyətdə kişinin zorakılığa məruz qalması nadir hal olsa da rast gəlinəndir. Kişilər daha çox mənəvi zorakılığa məruz qalır. Kişilər daha çox həyat yoldaşlarının təhqiri, lağ etməsi, kobud davranması kimi mənəvi zorakılıq görürlər.

Zorakılığın qurbanları qadınlardan sonra daha çox uşaqlar olur. Elə bu günlərdə mətbuatda Göygöl rayonunda anasının qeyri-qanuni birlikdə yaşadığı kişi tərəfindən zorakılığa məruz qalan körpənin fotoşəkilləri yayıldı. Azyaşlı vəhşicəsinə döyülmüş, bədən əzaları dəhşətli vəziyyətə salınmışdı. Bir çox ailədə valideynlər arasındakı anlaşmazlıqlardan, davalardan, zorakılıqdan uşaqların da payına düşür. Ailədaxili zorakılıq zamanı uşağa yönəlmiş, istər fiziki, istərsə də mənəvi zorakılıq göstərən hər cür davranış uşaq istismarı deməkdir. Ailədaxili zorakılıqda qocaların yeri də narahatlıq yaradacaq qədər genişdir. Ölkəmizdəki qocalar evlərində olan yaşlıların sayından bu cür halların əslində nə qədər çox olduğunu təxmin etmək olar. Bəzən övladları valideynlərini qocalar evinə göndərmək istəmir, çünki ya cəmiyyətin qınağından qorxur, ya da qoca valideyninin təqaüdünü itirməkdən. Buna görə də valideynə özü baxır. Amma necə baxır, orasını çoxumuz az-çox təxmin edə bilirik. Yaşlı və qocalara zorakılıq bir çox formada təzahür edir, bu fiziki zərər vermə də ola bilər, leqeydlik, maddi sıxıntı vermək, mal-mülkünə sahiblənmək, təhqir etmək, qürurunu sındırmaq kimi mənəvi zorakılıq da ola bilər.

Zorakılıq ailədən başlayır, cəmiyyətə də ailədən ötürülür. Məktəblərdə zorakılıq hallarının artması da bunun təsdiqidir. Məktəblilər bullinqə meyllənir, tətbiq edirlər. Uşaqlar hər fürsətdə bir-birini alçaldır, təhqir edir, özünə və əşyalarına zərər verir, fiziki və psixoloji təzyiq göstərir. Bullinq digər kollektivlərdə də baş verir, lakin məktəblərdə buna rast gəlmək daha təhlükəli vəziyyətin xəbərçisidir. Bəzən zorakılığı yeniyetməlik zamanı baş verən təbii proses kimi xarakterizə edirlər. Lakin zorakılığı heç bir halda böyümə dövrünə xas bir xüsusiyyət hesab etmək olmaz. Zorakılıq qeyri-insani davranışdır.

***Lalə Mehralı***

# Əli Kərimli COP29-a qarşı... by armenians invitation

Əli Kərimli yenə də erməni aləti olduğunu, erməni lobbisinin sifarişini yerinə yetirdiyini sübut edir. Deməli, Azərbaycanın COP29-a ev sahibliyi etməsi anti-Azərbaycan dairələri və erməni lobbisini kəskin narahat edir. Odur ki, ölkəmizə qarşı qara piar maşını işə düşüb. Özünü müxalifət adlandıran Əli Kərimli bu çirkin kampaniyada baş roldadır. Erməni lobbisi kampaniyaya "effekt" vermək üçün ondan necə lazımdır, istifadə edir. Baxma, "azərbaycanlı", "daxildən biri" olanda daha inandırıcı gəlir axı! Əli Kərimlinin "The Economist"də yazısı dərc olunub. Facebookda elə təqdim edir, elə bil nədir. Bu anti-Azərbaycan, ölkə maraqlarına zidd cızma-qaranı erməni lobbisi dərc elətdirib. Əli Kərimli nə üçün belə öyünür? "The Economist" erməni lobbisinin sifarişi əsasında yazılar dərc edən mətbu orqanlardan biridir. Google-da kiçik bir axtarış vermək kifayətdir ki, həqiqət üzə çıxsın. Burda digər məsələlərə də aydınlıq gəlmiş olur. Aydın olur ki, Əli Kərimli erməni sifarişi yerinə yetirir və bunun müqabilində vəsait alır. Başqa sözlə desək satqınlıq edir. Yoxsa, Əli Kərimli "The Economist"də yazısının dərc olunması ilə öyünməzdi. O "The Economist" ki, Azərbaycanın haqq işinə qarşı olaraq işğal müddətində Qarabağdakı separatçıları dəstəkləyən, Ermənistanı təbliğ edən yazıları zamanla dərc etməklə erməni lobbisinin sifarişçisi olduğunu təsdiqləmiş olur. Heç şübhəsiz demək mümkündür ki, Əli Kərimli erməni lobbisi ilə əlbirdir, təlimatı bu lobbidən alır. Əks halda, özünü partiya sədri, siyasətçi adlandıran Əli Kərimli də həm Vətən Müharibəsi, həm də antiterror tədbirləri zamanı ölkənin siyasi partiyalarının imzaladığı bəyanata imza atardı. Bu ki, Azərbaycanın haqq işi, milli məsələsi idi.




Yaxın keçmişə nəzər yetirsək görərik ki, ölkəmizdə keçirilmiş hər bir beynəlxalq əhəmiyyətli tədbir və idman oyunları zamanı anti-Azərbaycan dairələr, erməni lobbisi tərəfindən qara piar kampaniyaları aparılmışdır. Hər birində də AXCP adlı dərnəyin sədri Əli Kərimli baş rolda oynadılmışdır. COP29 da həmçinin! COP29 iqlim məsələlərinə həsr olunmuş beynəlxalq tədbirdir. Bu, bütün dünya üçün vacib və aktual məsələdir. Hətta Əli Kərimli daxil Yer planetində yaşayan hər bir kəs üçün!

Əli Kərimli öyünür ki, bəs onun yazısını "The Economist" "by invitation" rubrikasında dərc edib. Məşhur "Ac hərflər" tele-tamaşasında deyildiyi kimi - "Ədə, noolsun?" Bu rubrika əslində "by armenians invitation" rubrikasıdır. Belə təsəvvür edək ki, COP29 ərəfəsində Əli Kərimli ermənilərin 30 il ərzində Qarabağ və Şərqi Zəngəzurda törətdikləri ekosid haqqında bir yazı yazır. "The Economist" də bunu çap edir. Əsla belə bir hal mümkün deyil və ola da bilməz! Çünki Əli Kərimli belə bir yazı yazmaz, necə ki, indiyə kimi bu haqda bir cümlə belə danışmayıb. "The Economist"in də nəşr strategiyası bəllidir. Odur ki, Əli Kərimli "The Economist"də yazısı dərc edilib deyə öyünməsin! Azəraycana, xalqa, dövlətə qarşı kimlərinsə, haralarınsa trolu olmaq heç də öyünüləsi iş deyil!

***Anar Şahmuradov***
***İctimai-siyasi fəal***

*EKSPERT AÇIQLADI*

# Hansı halda məktəbəhazırlıq qruplarına ehtiyac qalmaz?

"Biz bir çox halda təhsil sahəsində hər hansı bir ilkə imza atarkən, atdığımız addımı əsaslandırmaq üçün adətən dünya təcrübəsindən nümunələr gətiririk. Halbuki, beynəlxalq təcrübədə təhsilə münasibətdə müxtəlif fərqli yanaşmalar var. Məsələn, biz dünya təcrübəsinə istinad edərək kurrikulum sisteminin tətbiqinə başlamışıq, halbuki bir çox ölkələr bu sistemdən imtina ediblər. Başqa bir misal. Biz Boloniya prosesinə qoşulmuşuq, Halbuki, bu prosesə qoşulmayan xeyli sayda ölkə mövcuddur. Biz 12 illik təhsili hədəfləmişik. Halbuki, dünya ölkələri içərisində 9 illik, 10 illik, 11 illik təhsillə kifayətlənənlər, hətta 13 və 14 illik təhsilə üstünlük verənlər belə var. Bu kimi misalların sayını xeyli artırmaq da olar". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.

Nadir İsrafilov sözlərinə belə davam edib: "O ki, qaldı 6 və ya 7 yaşdan uşaqların məktəbə göndərilməsinə, bu sahə də fərqlilikdən xali deyil. Bu halda da biz bir neçə dünya ölkəsini nümunə gətirərək, uşaqlarımızı 5 yaşdan məktəbəhazırlıq qruplarına çəlb etməyimiz azmış kimi, hələ erkən təhsilə başlamaqla bağlı rəsmi fikirlər səsləndiririk. Halbuki, dünya təhsilinin ən aparıcı ölkələrindən olan Finlandiya şaqirdləri məktəbə 7 yaşından qədəm qoyurlar. Onu da unudur və ya nəzərə almırıq ki, Sovet dönəminin 70 ili ərzində kosmosa ilk yol açanlar, milyonlarla insanı pulsuz mənzillə,, təhsillə, səhiyyə ilə təmin edənlər məhz 7 yaşdan məktəbə gedənlər olub. O dövrün Azərbaycanımiz 60-70-ci illərdə öz elminin, mədəniyyətinin, incəsənətinin intibah dövrünü yaşayıb, dünya elminə, mədəniyyət və incəsənətinə neçə-neçə tanınmış şəxsiyyət və sənət əsəri bəxş edib.

Biz sanki, harasa, nəyəsə tələsirik. Yəqin ki, yaşlı və orta nəslin bir çox nümayəndələri xatırlamamış olmazlar ki, indi bəyənmədiyimiz sovet dönəmində hazırda "məktəbəqədər təhsil müəssisələri" "məktəbəqədər tərbiyə" müəssisələri adlanırdı. Bu müəssisələrtabeliyindən asılı olmayaraq uşaqların ictimai tərbiyəyə cəlb edilməsində ailə və cəmiyyətin tələbatını ödəyir, milli və ərazi xüsusiyyətlərinə uyğun olaraqməktəbəqədər yaşlı uşaqların harmonik inkişafını və tərbiyəsini təmin etmək, onların fiziki və ruhi sağlamlığını möhkəmləndirmək, uşaqlara qayğı göstərmək və onların emosional sağlamlığını təmin etmək, uşaqların bir-biri ilə ələqələrini və münasibətlərini tənzimləmək; uşaqların məktəbə hazırlanmasını təmin etmək, uşaqlarda başqalarının hüquqlarına və böyüklərə hörmət hissi tərbiyə etmək, uşağın hərtərəfli inkişafını təmin etmək məqsədilə müntəzəm olaraq ailə ilə qarşılıqlı əlaqə saxlamaq missiyasını yerinə yetirirdilər.







Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 yanvar 1995-ci il tarixli Sər'ncamı ilə təsdiq olunmuş"Azərbaycan Respublikası Məktəbəqədər tərbiyə müəssisələri haqqında Əsasnamə"yə əsasən məktəbəqədər təhsil müəssisəsi - məktəbəqədər təhsilin dövlət standartlarına uyğun olaraq məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsini, əqli, fiziki, mənəvi inkişafını və ümumi təhsilə hazırlığını həyata keçirən təhsil müəssisəsi hesab edilmiş, məktəbəqədər təhsil haqqında Qanuna əsasən isə məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və mənəvi inkişafına xidmət edən ilkin bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi olaraq rəsmiləşdirilmişdir. "Təhsil haqqında" Qanuna əsasən, digər təhsilalma formaları ilə yanaşı, məktəbəqədər təhsil, ibtidai təhsil,ümumi orta təhsil, tam orta təhsil pillələri və səviyyələri də müəyyən olunub

Nəhayət, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 iyul 2016-cı il tarixli 271 nömrəli qərarı iləümumtəhsil məktəblərində dövlət vəsaiti hesabına 5 yaşlıların məktəbəhazırlıq qruplarında təhsili həyata keçirilməyə başlanılmışdır.

Hesab olunurdu ki, 5 yaşlıların məktəbə hazırlığının həyata keçirilməsi ibtidai sinif müəllimlərinin işini xeyli yüngülləşdirməklə yanaşı, onların əməyinin səmərəsini də yüksəldəcəkdir Bu məşğələlərin vəzifəsi uşağı məktəbə fiziki, intellektual və psixoloji cəhətdən hazırlamaqdır. Bu məqsədlə "Strategiya"da məktəbəqədər təhsillə yanaşı, məktəbə hazırlıq təhsilinin icbariliyinin də təmin olunması, erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəsinin 90 faiz səviyyəsinə çatdırılması vəzifəsi irəli sürülüb. Göründüyü kimi istər məktəbəqədər təhsil müəssisəsinin, istərsə də məktəbəhazırlıq qruplarının vəzifələrində elə də əsaslı fərq yoxdur.

"Strategiya"dan söz düşmüşkən, hələ 10 il dən artıq bundan qabaq təhsilimizin əsas hədəflərini müəyyən edən bu vacib sənəddə bildirilirdi ki, məktəbəqədər təhsilə cəlb olunma səviyyəsi aşağıdır. Belə ki, məktəbəqədər təhsillə əhatə səviyyəsi şəhərlərdə 23,4, kəndlərdə 8,7, ölkə üzrə isə 16,5 faiz təşkil edirdi. Son illərdə Bakı şəhərində yeni məktəbəqədər təhsil müəssisələrinin inşası və ya əsaslı təmiri istiqamətində atılan addımlar nəticəsində məktəbəqədər təhsillə əhatə səviyyəsində artım müşahidə olunsa da, bu sahədə həllini gözləyən problemlər hələ də qalmaqdadır. Ölkənin yaşayış məntəqələrinin xeyli hissəsindəməktəbəqədər təhsil müəssisəsi yoxdur. Strategiyanın qəbul edilməsindən sonra da xeyli sayda uşaq bağçası tikilməsinə baxmayaraq, bu defisit hələ də qalmaqdadır.

Məktəbəhazırlıq qruplarına və bununla bağlı uşaqların məktəbə 5 yaşından cəlb olunmasına ehtiyac yaranmaya da bilərdi, əgər bütün uşaqlar uşaq bağçaları ilə əhatə olunsaydı və məktəbə hazırlığı məktəblərdə deyil, məktəbəqədər təhsil müəssisələrində keçsəydi. Əgər uşaq bağçası defisiti aradan qaldırılarsa, məktəbəhazırlıq qruplarına ehtiyac qalmaz. Bu halda uşaqlar artıq 5 yaşdan yox, 6 yaşdan məktəbə getmək imkanı əldə edə bilərlər. O ki, qaldı uşaqların bir çox ölkələrdə və əvvəllər bizdə də olduğu kimi 7 yaşdan məktəbə getməsinə bu bu günümüz üçün hələ ki o qədər də real görünmür. Bunun üçün tədris planları, təhsil proqramları yenidən dəyişdirilməli, ümumtəhsil məktəbinin strukturuna yenidən baxılmalıdır. Belə bir dəhişiklik bir çox valideynlər tərəfindən birmənalı da qarşılanmaya bilər...".

***Ayşən Vəli***

# Gürcüstan uğrunda mübarizə: Qərbin LGBT kampaniyasına qarşı xalqın və hökumətin birliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*








**Gürcüstanda Avropanın yaratdığı LGBT problemi ilə bağlı analitik Vladimir Tsxvedianinin Caliber.Az-da dərc olunan yazısını oxucularımıza təqdim edirik.**

Xəbər verildiyi kimi, 2024-cü il sentyabrın 18-də Tbilisidə transseksual Kesariya Abramidze öldürülüb. Bu, Gürcüstan parlamentinin LGBT təbliğatını qadağan edən qanunu qəbul etməsindən bir gün sonra, Aİ və ABŞ nümayəndələrinin Gürcüstan hakimiyyəti haqqında son dərəcə mənfi bəyanatları fonunda "qəribə təsadüf nəticəsində" baş verib. Demək olar ki, dərhal sosial şəbəkələrdə qurbana rəğbət və "homofob" Gürcüstan hakimiyyətinə nifrət kampaniyası başladılıb.

"Gürcü arzusu" partiyası Kesariya Abramidzenin qətlində ittiham olunurdu. Təqsirləndirilən qatilin "aprel ayında xarici agentlər haqqında qanuna qarşı etiraz aksiyalarının iştirakçılarına qarşı zorakılıq tətbiq edənlərdən biri olduğu" barədə məlumatlar da yayılmağa başladı. Belə ki, onlar 2024-cü il oktyabrın 26-na təyin edilmiş parlament seçkiləri ərəfəsində Gürcüstanda daxili vəziyyəti qeyri-sabitləşdirmək üçün LGBT gündəmindən istifadə etməyə çalışıblar.

Amma müxalifət xalqı yenidən etiraza çıxara bilmədi. Sosial şəbəkələrdə bir vaxtlar kişi olan "yazıq qız" üçün ağlamalı statuslar olmasına baxmayaraq, transgenderlərə və ümumilikdə LGBT-lərə kütləvi rəğbət oyatmaq mümkün olmayıb.

Əvvəllər də Gürcüstanda qərbyönlü QHT-lər və müxalifət "homofobiya qurbanlarına simpatiya" əsasında etiraz aksiyaları keçirməyə çalışıblar. Bu, 2021-ci ilin yayında, ənənəvi düşüncəli gürcü ictimaiyyəti Tbilisi Pride-nin LGBT paradını keçirmək cəhdinin qarşısını aldıqda baş verdi. Daha sonra Gürcüstan hakimiyyəti təhlükəsizlik baxımından Qərb səfirliklərinin fəal şəkildə təbliq etməyə çalışdığı LGBT icmasının 5 iyul 2021-ci il üçün elan etdiyi tədbirləri ləğv etdi.

Lakin LGBT tərəfdarları ilə əleyhdarları arasında baş verən toqquşmadan 6 gün sonra bu hadisələr zamanı yaralanan Gürcüstanın "TV Pirveli" telekanalının operatoru Lekso (Aleksey) Laşkarava dünyasını dəyişib. Müxalifət dərhal onu "LGBT icmasının əleyhdarlarının hücumunun qurbanı" etməyə çalışdı. Qərbyönlü qeyri-hökumət təşkilatları Gürcüstanın baş naziri İrakli Qaribaşvili və daxili işlər naziri Vaxtanq Qomelaurinin istefasını tələb edərək parlament binasına bir neçə yüz tərəfdarını gətiriblər. Sonradan istintaq müəyyən etdi ki, Laşkarava həddindən artıq yüksək dozada narkotik qəbulundan ölüb və onun ölümü ilə "homofobların" heç bir əlaqəsi yoxdur. Jurnalistə simpatiyaya əsaslanan kütləvi etiraz aksiyaları da təşkil olunmayıb.

Lakin bu o demək deyil ki, LGBT icmasının nümayəndələrinin və ya onların müdafiəçilərinin oxşar "gözlənilməz" ölümləri və ya qətlləri LGBT gündəmi ilə bağlı Gürcüstan hakimiyyəti ilə xarici qüvvələr arasında qarşıdurmada istifadə edilməyəcək.

Heç kimə sirr deyil ki, Qərb bütün dünyada LGBT təbliğatına böyük vəsait ayırır, milli dövlətlərdən, hətta bu, milli və dini ənənələrə zidd olsa belə, tam dözümlülük tələb edir. Bu ənənələr də pozulmağa və "vahid dini formata" sığmağa meyllidir. Ənənəvi katolik ictimaiyyətinin əhəmiyyətli bir hissəsinin LGBT gündəmini rədd etməsinə baxmayaraq, Papa Fransisk LGBT icmasının nümayəndələrinə öz xeyirxahlığını fəal şəkildə nümayiş etdirir və digər dini liderlər də ondan nümunə götürməyə çağırılır. Dünyanın ən mühafizəkar dini təşkilatlarından biri olan Gürcü Pravoslav Kilsəsi öz ölkəsində xaricdən tətbiq edilən LGBT gündəminə müqavimət göstərsə də, bir çox digər xristian ölkələrində bu müqavimət faktiki olaraq qırılıb. Elə Yunanıstan fonunda da bu aydın görünür- bu ilin əvvəlində "eynicinsli nikah"a icazə verən ilk pravoslav ölkə oldu. Gürcüstan isə mühafizəkarlığın qalasına və digər pravoslav ölkələri üçün bir növ model rolunu oynayır.

Rusiyada da mühafizəkar pravoslav dindarlar arasında Gürcüstana rəğbət artıb. Bu, həmin insanların geosiyasi baxışlarında müəyyən nəticələr verə bilər. Baxmayaraq ki, Konstantin Zatulin kimi gürcüfoblar "Artsax"ın süqutundan sonra Abxaziya və Sxinvali regionunda separatizmi, erməni lobbisi tərəfindən onilliklər boyu gürcüfobiya və separatizmə dəstək ruhunda aşılanmış pravoslav rusları ümidsizcəsinə müdafiə edirlər, indi işığı görməyə başlayırlar. Ola bilsin ki, Rusiya tədricən qardaş pravoslav Gürcüstanın ərazi bütövlüyünün bərpasına dəstək verməyə meyllənsin. Gürcüstan Rusiya Federasiyasının pravoslav mühafizəkar ictimaiyyətinin ideallarına daha çox uyğunlaşıb, xüsusən də LGBT gündəminə tab gətirə bilməyən Yunanıstandakı aşkar məyusluq fonunda.

Unutmamalıyıq ki, rus pravoslav vətənpərvərləri arasında uzun müddətdir ki, Konstantinopolun (İstanbul) yunanlara qaytarılması qondarma haqqında fikir var. Hətta Rusiya Federasiyasındakı nüfuzlu, "pravoslav" informasiya resurslarından biri üçün "Çarqrad" adını onun sahibi Konstantin Malofeyev İstanbul-Konstantinopol-"Çarqrad"ı Türkiyədən geri almaq planlarına aydın işarə ilə götürmüşdü. İndi Rusiyada pravoslavlar üçün örnək Türkiyəyə qarşı qeyri-dost münasibəti ilə Yunanıstan yox, LGBT gündəminə uymayan, milli və dini kimliyi müdafiə etməkdə nümunə göstərən mühafizəkar Gürcüstandır.

LGBT gündəminin təbliği ilə millətlərüstü və transmilli strukturlar dövlətlərin milli suverenliyini məhv edirlər. Bir vaxtlar "gey"lərin qürur paradını keçirən və gənclər arasında LGBT təbliğatının "normallığını" tanıyan ölkələr indi milli maraqların parçalanmaması və təslim olmaması üçün əks yolda irəliləməyə başlayır. Yeganə istisnalar Viktor Orban hökumətinin məktəblilər arasında LGBT təbliğatını qanuni olaraq qadağan edə bildiyi Macarıstan və Rəcəb Tayyib Ərdoğan hakimiyyətə gəldikdən sonra İstanbulda gey-paradların keçirilməsini dayandırıldığı Türkiyədir.

LGBT gündəminin tətbiqi əslində bütöv dövlətlərin və xalqların adət-ənənələrinin məhvinə gətirib çıxarır. Bu prosesləri Qərbi Avropanın bir çox ölkələrində və məsələn, turizmin inkişafının böyüməsi ilə



müşayiət olunduğu Tailandda müşahidə etmək olar. Bu, doğum səviyyəsinin fəlakətli şəkildə azalmasına, ailələrin dağılmasına, psixi pozğunluqların, intiharların və İİV-in yayılmasının artmasına səbəb olur.

Milli kimliyin qorunub saxlanmasının tərəfdarı olan Gürcü Pravoslav Kilsəsi və hakim "Gürcü Arzusu" partiyası öz xalqlarının belə bir aqibəti istəmədiklərini açıq şəkildə bəyan ediblər. Məhz buna görə də Gürcüstan parlamentinin 2024-cü il sentyabrın 17-də LGBT təbliğatını qadağan edən qanunu qəbul etməsi gürcü cəmiyyətinin əksəriyyətinin tam dəstəyini qazanıb.

LGBT gündəminin tətbiqi çox vaxt rəngli inqilabların texnologiyaları ilə paralel gedir. Ənənəvi dəyərlərə malik ölkələrdə belə gündəmlərə etirazlar çox vaxt hakimiyyətə təzyiq vasitəsinə çevrilir. Bu cür təzyiqlərə tab gətirən ölkələr digər sahələrdə də zəiflik nümayiş etdirərək onları xarici müdaxilələrə və sabitliyin pozulmasına qarşı həssas edir. Bu gün Gürcüstan hakimiyyəti açıq şəkildə nümayiş etdirir ki, onlar Ukrayna ssenarisinin öz ölkələri üçün təkrarlanmasını istəmirlər.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
2 oktyabr
2024-cü il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Ana uşaqlarına öz soyadını verə bilər?



## AYDINLIQ GƏTİRİLDİ

”Hər bir valideyn övladına ad, soyad və ata adının verilməsi üçün ASAN Xidmət mərkəzlərinə və ya Ədliyyə Nazirliyi tabeliyində olan Qeydiyyat idarələrinə müraciət edə bilər”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Fariz Əkbərov sözlərinə belə davam edib: ”Öz aralarında nikahda olan ata və ana doğum haqqında şəhadətnamədə uşağın valideynləri kimi qeyd olunurlar. Valideynlər öz aralarında nikahda olmadıqda uşağın anası haqqında qeyd ananın ərizəsi, atası haqqında qeyd isə uşağın atasının və anasının birgə ərizəsi və ya atanın ərizəsi əsasında, habelə məhkəmənin qərarı əsasında aparılır. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 46.3-cü maddəsinə əsasən uşaq nikahı olmayan anadan olduqda və atalığın müəyyən olunması barədə valideynlərin birgə ərizəsi və ya məhkəmənin qətnaməsi olmadıqda, doğum haqqında şəhadətnamədə uşağın atasının soyadının əvəzinə ananın soyadı yazılır. Uşağın atasının adı uşağın anasının göstərişi üzrə yazılır.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 53.2-ci maddəsinə, eləcə də ”Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin qərarına əsasən uşağa ad valideynlərin razılığı ilə verilir. Uşağın soyadı, bir qayda olaraq, valideynlərin soyadı ilə müəyyən edilir. Uşağın valideynlərinin soyadları müxtəlif olduqda, uşağa valideynlərin razılığı ilə atanın və ya ananın soyadına uyğun soyad verilir. Valideynlər arasında uşağın soyadına münasibətdə razılıq olmadıqda, yaranan fikir ayrılığı yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları tərəfindən qanunvericiliyə uyğun olaraq həll olunur”.

***Ayşən Vəli***

# Yanacaqdaşıyan maşının sürücüsü yanaraq ölüb

**Ucar rayonunda qəzaya uğrayan yanadaşıyan maşının sürücüsü yanaraq ölüb. SİA-nın Yuxarı Şirvan bürosu xəbər verir ki, sürücünün ölümünü əraziyə cəlb olunmuş hüquq-mühafizə orqanlarının əməkdaşları təsdiqləyiblər.**



Qeyd olunub ki, maşının qəzaya uğraması nəticəsində çıxan yanğın zamanı rayonun Müsüslü kənd sakininə məxsus tövlə də tamamilə yanıb.

# Dünyanın ən bahalı futbolçusu açıqlandı - qiyməti 200 milyon avrodur!

**Nüfuzlu ”Transfermarkt” internet portalı İngiltərə Premyer Liqası futbolçularının bazar qiymətlərini yeniləyib. Qol.az xəbər verir ki, yenilənmələrdən sonra ”Mançester Siti”nin hücumçusu Erlinq Haalandın transfer qiymətinin artdığı da məlum olub. Norveçli forvardın qiyməti hazırda 200 milyon avrodur. Bu onu planetin ən bahalı futbolçusu edir. Haalandın ən yaxın izləyiciləri - Kylian Mbappe, Cud Bellinqem və Vinisius Junior 180 milyon avro dəyərində qiymətləndirilir.**




Qeyd edək ki, Haaland 2022-ci ilin yayından ”şəhrlilər”in futbolçusudur. O, bu mövsüm bütün turnirlərdə 7 matçda iştirak edib və 10 qol vurub. Futbolçunun klubla müqaviləsi 2027-ci ilin yayına kimi nəzərdə tutulub.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 2700